## Laçında çimərlik istifadəyə veriləcək



**Laçın şəhərində tikinti-quruculuq işləri sürətlə davam edir.**

Azərtac-ın bölgə müxbiri xəbər verir ki, şəhərin giriş hissəsindən körpünün sol istiqamətində Həkəri çayında göl yaradılıb.

Gölün ətrafında abadlıq işləri görülür, müxtəlif işıqlandırma, istirahət zonaları qurulur. Burada çimərlik də fəaliyyət göstərəcək. İnsanların rahat istirahət etməsi üçün çimərliyin ətrafında əyləncə mərkəzinin yaradılması nəzərdə tutulub.

## Ukrayna Baxmutun bir hissəsini azad edib



**Ukrayna müdafiəçiləri Baxmut şəhərinin bir kilometrini Rusiyanın "Vaqner" Xüsusi Hərbi Şirkətinin hərbçilərindən azad ediblər.**

"Report" xəbər verir ki, bu barədə "İnsayder" məlumat yayıb.

Bildirilib ki, Ukrayna Silahlı Qüvvələrinin "Terra" bölüyü Baxmutda irəliləyir.

*Qeyd edək ki, Rusiyanın məhbuslar da cəlb edilən "Vaqner" muzdlu döyüşçüləri Baxmutu mühasirəyə almışdı. Ancaq son günlər Ukrayna müdafiəçiləri muzdluları tutduqları mövqedən geri çəkilməyə məcbur ediblər.*

❒ № 79 (5840) 2023-cü il

Qiyməti 40 qəpik

# ŞƏRQ

Günəş Şərqdən doğur!

www.sherg.az 9 may 2023-cü il (çərşənbə axşamı)




# Şuşa festival ab-havasına bürünüb

**Mayın 9-11-də Heydər Əliyev Fondu və Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə Azərbaycanın mədəniyyət paytaxtı Şuşa şəhərində "Xarıbülbül" Beynəlxalq Musiqi Festivalı keçiriləcək. Bu ərəfədə Şuşa festival ab-havasına bürünüb.**

Qeyd edək ki, mayın 9-11-də Heydər Əliyev Fondu və Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə Azərbaycanın mədəniyyət paytaxtı Şuşa şəhərində "Xarıbülbül" Beynəlxalq Musiqi Festivalı keçiriləcək. Üç gün davam edəcək festival çərçivəsində konsert proqramları, sərgilər və müxtəlif təqdimatlar olacaq.



## Prezident və xanımı Şuşada...

Əhmədbəyli-Füzuli-Şuşa yolunun tikintisinin 2024-cü ildə başa çatdırılması planlaşdırılır

**Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mayın 8-də Şuşaya səfər ediblər.**

Dövlət başçısı və birinci xanım Əhmədbəyli-Füzuli-Şuşa magistral avtomobil yolunun 66-81-ci kilometrliyində görülən işlərlə tanış olublar. Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyətinin sədri Saleh Məmmədov dövlətimizin başçısına görülən işlər barədə məlumat verib.

(səh.2)

# 801 məhkum əfv olundu

Prezident Azərbaycanın müstəqillik tarixinin ən böyük Əfv Sərəncamına imza atdı



**Prezident İlham Əliyev Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin 100 illik yubileyi münasibətilə Əfv Sərəncamı imzalayıb.**

Sərəncama əsasən, 801 məhkum əfv olunmuş, onlardan 463 şəxs azadlıqdan məhrumetmə cəzasından, 220 şəxs azadlıqdan məhrumetmə cəzasının çəkilməmiş hissəsinin yarısından, 118 nəfər azadlıqdan məhrumetmə ilə bağlı olmayan digər cəzalardan azad edilib. Qeyd edilməlidir ki, bu Sərəncam şamil edildiyi şəxslərin dairəsinə görə müstəqil Azərbaycan Respublikasının tarixində qəbul edilmiş ən böyük əfv aktıdır. Müqayisə üçün qeyd olunmalıdır ki, Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi münasibətilə qəbul edilmiş 2018-ci il 24 may tarixli Əfv Sərəncamı 634 məhkuma şamil edilib.

(səh.3)

## Brüsseldə liderlərin növbəti görüşü gözlənilir

Rusiya isə Qərbin vasitəçiliyi ilə Azərbaycan-Ermənistan sülh müqaviləsini özünə təhdid hesab edir



**Mayın 14-də Prezident İlham Əliyev və Ermənistan Baş naziri Nikol Paşinyanın Brüsseldə görüşəcəyi barədə xəbərlər yayılıb.**

Məlumata əsasən, danışıqlar Avropa Şurasının sədri Şarl Mişelin vasitəçiliyi ilə aparılacaq və üçtərəfli görüş şəklində olacaq. Brüsseldə baş tutacaq görüş ölkələr arasında önəmli proqresin əlaməti kimi şərh olunur.

(səh.2)

# Dilənçiliyin forması əslində dəyişməyib

Küçə uşaqlarının 90 faizdən çoxu təhsildən yayınır



**Bu gün ölkəmizdə dilənçiliyin forması dəyişib, yəni formanın özü bir qədər yaxşılaşıb". Bunu Milli Məclisin deputatı Elman Nəsirov deyib.**

O deyib ki, əvvəl dilənçilər insana yaxınlaşıb pul istəyirdilərsə, indi əllərində salfet tutub 10 qəpiyə satırlar: "Həmin məbləğə sənə salfet təqdim edir və qarşılığında pulunu istəyir. Bu, bir qədər dilənçiliyin fərqli yanaşmasıdır. Başqa bir növ isə maşın sürərkən müxtəlif istiqamətlərdən uşaqlar anidən hücuma keçirlər və şüşələri təmizləməyə başlayırlar və s. Bu da təhlükəsizlik baxımından müəyyən problemlər yaradır".

(səh.3)



## Azərbaycanda səs verən Türkiyə vətəndaşlarının bülletenləri Türkiyəyə göndərilib

**Azərbaycanda səs verən Türkiyə vətəndaşlarının bülletenləri Türkiyəyə göndərilib.**

Bu barədə Türkiyənin Azərbaycandakı səfiri Cahit Bağcı "Twitter" hesabında bildirib. "Ölkəmizə, millətimizə, gələcəyimizə xeyirli olmasını arzu edirik", - deyə paylaşımda qeyd edilib.

*Xatırladaq ki, Türkiyədə Prezident və parlament seçkiləri 14 may 2023-cü il tarixində keçiriləcək. Türkiyə Prezidenti və AK Partiyanın rəhbəri Rəcəb Tayyib Ərdoğan, Məmləkət Partiyasının rəhbəri və 2018-ci ildə Cumhuriyyet Xalq Partiyasının rəhbər namizədi Muharrem İnce, Ata İttifaqının namizədi Sinan Oğan və Kamal Kılıçdaroğlunun namizədliyi təsdiqlənib.*

## Əsir hərbçimizə 11,5 il həbs cəzası verildi

Digər azərbaycanlı əsgər Hüseyn Axundovun "cinayət işi üzrə istintaq" davam edir



**Ermənistan məhkəməsi əlverişsiz hava şəraitində məhdud görmə səbəbindən yolu azaraq Ermənistan tərəfə keçən və orada əsir saxlanılan Azərbaycan hərbçisi Aqşin Bəbirovu 11,5 il müddətinə azadlıqdan məhrum edib.**

Məlumatı "Sputnik Armeniya" yayıb. A.Bəbirov "sərhədi qanunsuz keçmək, silah və sursat daşımaqda" ittiham olunub. Məlumata görə, Ermənistanda əsir saxlanılan digər azərbaycanlı əsgər Hüseyn Axundovun "cinayət işi üzrə istintaq" davam edir.

(səh.3)

## "Yiyəsiz adam"

Dünyada ən böyük dəhşət sahibsiz qalmaqdır



**Məşhurlar nə qədər ki, sağdır, həyatları göz önündə, həm də xalqın "dilindədişin"də olur.** Vəfat edəndən sonra isə övladları məşhur valideynlərinin həyatını sanki davam etdirir. "Filankəs nə işlə məşğuldur, necə adamdır", düşünən çox az olur, adətən "filankəsin oğlu, filankəsin qızı bunu elədi, onu elədi" deyib övladlarından əl çəkmək istəmir cəmiyyət.

(səh.6)



## Kılıçdaroğlu "türk yolu"nda deyil

Hədəflərə çatmaq üçün Ərdoğanın hakimiyyətdə qalması önəmlidir

(səh.4)



## Paşinyan Azərbaycanın 8 kəndini qaytarmağa hazırdır

Erməni Baş nazirin şərti sərhədin 1975-ci il xəritəsinə uyğun müəyyən edilməsinə hesablanıb

(səh.5)



# Prezident və xanımı Şuşada...

**Əhmədbəyli-Füzuli-Şuşa yolunun tikintisinin 2024-cü ildə başa çatdırılması planlaşdırılır**

**Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mayın 8-də Şuşaya səfər ediblər. Dövlət başçısı və birinci xanım Əhmədbəyli-Füzuli-Şuşa magistral avtomobil yolunun 66-81-ci kilometrliyində görülən işlərlə tanış olublar. Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyətinin sədri Saleh Məmmədov dövlətimizin başçısına görülən işlər barədə məlumat verib.**

Bildirilib ki, başlanğıcını M6 Hacıqabul-Horadiz-Ağbənd-Zəngəzur dəhlizi magistral avtomobil yolundan götürməklə işğaldan azad edilən Füzuli, Xocavənd, Xocalı və Şuşa rayonlarını birləşdirən 81,7 kilometr uzunluğundakı Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunun beynəlxalq magistral normalarına uyğun tikintisi sürətlə davam etdirilir. Yolun 66-81-ci kilometrliyində işlərin 85 faizi başa çatıb. Uzunluğu 15,72 kilometr olan bu hissədə yolun hərəkət sahəsinin eni 10,75 metr, torpaq yatağının eni isə 21,5 metrdir. Dövlət başçısının tapşırığına əsasən, Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolu Qarabağın inkişaf planı nəzərə alınaraq, dörd hərəkət zolaqlı olmaqla 1b texniki dərəcəyə uyğun inşa edilir. Qeyd edilib ki, layihəyə əsasən, yolun bu hissəsində 5 viadukun, 6 tunelin və bir körpünün tikintisi üzrə əsas işlər yekunlaşıb. Hazırda həm viaduklarda, həm də tunellərdə son tamamlanma işləri icra olunur. Viadukların tikintisi zamanı Azərbaycanda ilk dəfə olaraq aşırım qəliblərin üfüqi sürüşdürülməsi üsulu ilə betonlama işləri yerinə yetirilib. Yolun bu hissəsində suların ötürülməsini təmin etmək məqsədilə müxtəlif ölçülü 15 dairəvi suötürücü boru, 24 düzbucaqlı su keçidi, 4 alt keçid və bir neçə ehtiyat keçid inşa edilib. Dövlət başçısı və birinci xanım görülən işlərlə bağlı videoçarxa baxıblar.

Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının ərazisində icra olunan və işğaldan azad edilmiş rayon və kəndlərin sosial-iqtisadi inkişafında mühüm rol oynayacaq yol infrastrukturu layihələrindən biri sayılan Əhmədbəyli-Füzuli-Şuşa avtomobil magistralının tikintisinin 2024-cü ildə başa çatdırılması planlaşdırılır.

Mayın 8-də Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Daşaltı kəndində Zarıslıçay nasos stansiyasının açılışında da iştirak ediblər. Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin sədri Zaur Mikayılov dövlət başçısına Şuşa şəhərinin içməli su təchizatı, kanalizasiya və yağış suları sistemləri haqqında məlumat verib. Qeyd edək ki, Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə şanlı Azərbaycan Ordusu tərəfindən 2020-ci il noyabrın 8-də Şuşa şəhəri işğaldan azad edildikdən qısa müddət sonra şəhərin içməli su təminatının bərpasına başlanılıb. Mütəxəssislər tərəfindən şəhərin su mənbələrinin, magistral xətlərin, paylayıcı şəbəkələrin və digər hidrotexniki qurğuların mövcud vəziyyəti araşdırılıb. Məlum olub ki, şəhəri içməli su ilə təmin edən mənbələr və magistral kəmərlər erməni vandallar tərəfindən məqsədli şəkildə dağıdılıb və şəhərə suyun nəqli dayandırılıb. Təxirəsalınmaz Tədbirlər Proqramına uyğun olaraq, Kiçik Kirs mənbəyinin və Kiçik Kirs-Şuşa magistral su kəmərinin qəzalı hissələri qısa müddətdə təmir olunub və 2020-ci il noyabrın 25-də Şuşa şəhərinə suyun verilişi bərpa edilib. Eyni zamanda Şuşa şəhərinin digər mənbəyi - Zarıslı sugötürücü qurğusunun, uzunluğu 14,3 kilometr olan Zarıslı-Şuşa magistral su kəmərinin qəzalı hissələrinin bərpasına başlanılıb və 2020-ci il dekabrın 20-də bu mənbədən şəhərə suyun verilməsi təmin edilib. Şəhərin perspektiv inkişafı nəzərə alınaraq, həmçinin ilin müəyyən dövrlərində Kiçik Kirs və Zarıslı mənbələrində məhsuldarlığın kəskin azalması səbəbindən alternativ su mənbəyinin yaradılması layihəsinin icrasına başlanılıb. Bu məqsədlə Daşaltı kəndinin yaxınlığında, Zarıslı çayının məcrasında tutumu 25 min kubmetr təşkil edən sutoplayıcı anbar, nasos stansiyası və diametri 159 millimetr, uzunluğu 2,9 kilometr olan yeni təzyiqli kəmər inşa edilib, eyni zamanda diametri 325 millimetr, uzunluğu 9,3 kilometr olan Kiçik Kirs-Şuşa magistral su kəmərinin istismara yararsız 5,2 kilometrlik hissəsi diametri 530-426 millimetr olan borularla əvəzlənib. Görülmüş işlərin nəticəsində 2022-ci ilin dekabrında yeni mənbədən suyun verilməsi ilə şəhərdə yaşayış olan evlər, dövlət qurumlarının inzibati binaları, hotellər, ictimai-iaşə müəssisələri və digər obyektlər fasiləsiz içməli su ilə təmin edilib.

Məlumat verilib ki, 2040-cı ilə perspektiv inkişaf nəzərə alınmaqla hazırlanan Şuşa şəhərinin su təchizatı, kanalizasiya və yağış suları sisteminin yenidən qurulması layihəsi 25 min nəfərin tələbatının ödənilməsinə hesablanıb. Layihəyə əsasən, şəhərin orta gündəlik su tələbatı 105 litr-saniyə təşkil edir. Şəhərə içməli su mövcud Kiçik-Kirs, Zarıslı mənbələrindən, həmçinin Zarıslıçay su anbarından veriləcək. Gələcəkdə Zarıslıçay su anbarı genişləndiriləcək və tutumu 25 min kubmetrdən 7,5 milyon kubmetrə çatdırılacaq. Eyni zamanda məhsuldarlığı sutkada 8 min kubmetr olan içməli sutəmizləyici qurğu inşa olunacaq. Şəhərin su təchizatında dayanıqlığın təmin olunması məqsədilə ümumi həcmi 6 min kubmetr olan 3 su anbarı layihələndirilib və hazırda onlardan birinin tikintisi davam etdirilir. Layihəyə əsasən, Şuşa şəhərində 24 kilometr magistral su kəməri, 44 kilometr içməli, 42 kilometr tullantı və 41 kilometr yağış su şəbəkələri inşa olunacaq. Şəhərdə formalaşan tullantı sularının tam təmizlənib zərərsizləşdirilməsi məqsədilə məhsuldarlığı sutkada 8 min kubmetr olan qurğu inşa ediləcək. Qurğuda emal edilərək təmizlənən su ekoloji duruma zərər vurmadan Qarqarçaya axıdılacaq. Şuşa şəhərində yaradılan yeni infrastruktur ”Ağıllı su” sistemi əsasında idarə olunacaq. Suyun mənbədən götürülməsi, nəqli, anbarların səviyyəsi, hidravlik rejimlər və digər proseslər SCADA sistemləri vasitəsilə onlayn rejimdə tənzimlənəcək. 2023-cü ilin ikinci yarısında məhsuldarlığı sutkada 8 min kubmetr olan içməli sutəmizləyici qurğunun inşası nəzərdə tutulur ki, bu işlərə də 7,4 milyon manat vəsait sərf olunacaq.

**İsmayıl**

# Brüsseldə liderlərin növbəti görüşü gözlənilir

Rusiya isə Qərbin vasitəçiliyi ilə Azərbaycan-Ermənistan sülh müqaviləsini özünə təhdid hesab edir



“Həlledici döyüş qabaqdadır. Güc mərkəzlərinin regionda mübarizəsi daha kəskin xarakter alacaq”

**Mayın 14-də Prezident İlham Əliyev və Ermənistan Baş naziri Nikol Paşinyanın Brüsseldə görüşəcəyi barədə xəbərlər yayılıb. Məlumata əsasən, danışıqlar Avropa Şurasının sədri Şarl Mişelin vasitəçiliyi ilə aparılacaq və üçtərəfli görüş şəklində olacaq. Brüsseldə baş tutacaq görüş ölkələr arasında önəmli proqresin əlaməti kimi şərh olunur.**

Hər üç liderin iyunun 1-də Moldovada keçiriləcək Avropa Siyasi İcması sammiti çərçivəsində Almaniya Kansleri Olaf Şolts və Fransa Prezidenti Emmanuel Makronla görüşü də planlaşdırılır. Xatırladaq ki, yaxın günlərdə Azərbaycan və Ermənistan rəhbərliyinin Rusiyada bir araya gələcəyi də bildirilib. Rusiya XİN sözçüsü Mariya Zaxarova tərəflərin Moskvada görüşlə bağlı razılıq verdiklərini deyib.

**Vətəndaş Həmrəyliyi Partiyasının sədr müavini, politoloq Samir Əsədli ”Şərq”ə açıqlamasında diqqətə çatdırıb ki, əgər əvvəllər tərəfləri ancaq Moskva bir araya gətirirdisə, indi Avropa İttifaqı və ABŞ da aktiv vasitəçi rolunda çıxış edir. Politoloq vurğulayıb ki, bu, səbəbsiz deyil. Çünki Cənubi Qafqaz Qərblə Rusiyanın mövqelərinin üst-üstə düşdüyü azsaylı bölgələrdən biridir:** ”Azərbaycan və Ermənistan arasında sülhün bərqərar olmasını Türkiyə də dəstəkləyir və tərəflərlə danışıqlar aparır. Ermənistanın Qərblə münasibətlərini sıxlaşdırması, KTMT, Avropa İttifaqı seçimində ikinciyə üstünlük verməsi, habelə sülh danışıqlarında Moskvanın arbitr rolundan imtina etməsi Kremli Azərbaycandan ikiəlli yapışmağa vadar edir. Ermənistanın Qarabağ mövzusunun sülh razılaşmasına daxil etmək tələbindən geri çəkilməsi kompromislər yolu ilə sülh razılaşmasının imzalanmasını mümkün edir. Bu addım atıldıqdan sonra sərhədlərin delimitasiya və demarkasiyası, kommunikasiyaların açılması ilə bağlı danışıqlar başlaya bilər. Sözsüz ki, Qərb bu prosesdə yaxından iştirak edəcək. Amma sülh razılaşması Qarabağ problemini çözməyəcək. Rusiya hələ ki, regionda güclüdür və öz imkanlarını nümayiş etdirərək, prosesi tam inhisara alıb. Hazırkı şəraitdə Qərbin Xankəndidəki separatçı rejimə təzyiq imkanları azdır. Eləcə də Ermənistan hakimiyyəti kifayət qədər məhdud resurslara malikdir”.

**S.Əsədliyə görə, separatçılar məsələsi Bakı ilə Moskva arasında müzakirələrin nəticəsinə uyğun olaraq həllini tapa bilər:** ”Əlbəttə, prosesin növbəti dəfə pozulması riskləri də kifayət qədər ciddidir. İlk növbədə Qərbin səyləri və təzyiqlərinə baxmayaraq, tərəflərin kompromisə getməməsi gərginliyi artıracaq.

İkincisi, Rusiya-Ermənistan münasibətlərində böyüyən çat nəinki sülh prosesinin, ümumiyyətlə, Ermənistanda siyasi sabitliyin pozulmasına gətirib çıxara bilər. Rusiya Qərbin vasitəçiliyi ilə Azərbaycan-Ermənistan sülh müqaviləsini özünə təhdid hesab edir. Rəsmilər dəfələrlə bəyan ediblər ki, bu, Qərbin regiona gəlişini şərtləndirir və ona imkan vermək niyyətində deyillər. Bir sözlə, həlledici döyüş qabaqdadır. Güc mərkəzlərinin regionda mübarizəsi daha kəskin xarakter alacaq”.

**İsmayıl Qocayev**



## Putin Paşinyanı Moskvaya məqsədli dəvət edib

Rusiya Prezidenti baş nazirə Brüsseldə baş tutacaq görüşdən öncə təlimat verəcək

**Ermənistan Nazirlər Kabineti Baş nazir Nikol Paşinyanın Rusiya Prezidenti Vladimir Putinin dəvəti ilə Moskvaya səfərinə dair məlumat yayıb.**

Məlumatda qeyd edilib ki, erməni baş nazir mayın 9-da Qələbə Günü şərəfinə keçiriləcək tədbirlərdə iştirak edəcək.

**Səfərin gizlinlərini ”Şərq”ə açan politoloq Samir Hümbətov bildirib ki, Vaşinqtonda keçirilən görüşdən sonra, Rusiya XİN-in sözçüsü Zaxarova Moskvada da təmasların olacağı ilə bağlı açıqlama verdi:**

”Mayın 14-ü isə Prezident İlham Əliyev və Nikol Paşinyan arasında Brüsseldə Avropa İttifaqının 5-ci raundunun keçirilməsi gözlənilir. Putinin Paşinyanı Moskvaya dəvət etməsinin arxasında dayanan əsas səbəblər də bunlardır. Yəni Rusiya prezidenti mesaj ötürür. Çünki qələbə paradında Özbəkistan prezidentindən başqa liderlərin iştirakı gözlənilmirdi”.

Analitik əlavə edib ki, Putin Paşinyanı dəvət etməklə Ermənistanın da onun yanında olduğunu çatdırır: ”Lakin hər kəs Ermənistan baş nazirinin mövqeyini və Kremllə hansı münasibətdə olduğunu yaxşı bilir. Ümumiyyətlə, Rusiya prezidentinin 14 mayda Brüsseldə baş tutacaq görüşdən öncə Paşinyana təlimat verəcəyini və ona basqı edəcəyini düşünürəm.

Həmçinin bu dəvətin Vaşinqton təmaslarında müzakirə olunan məsələlərin təfsilatını öyrənmədə hesablanma ehtimalı var. Digər tərəfdən, görünür ki, rəsmi Moskva bölgə ilə bağlı strategiyasında müəyyən dəyişikliklər etməyi planlaşdırır.

Ona görə də Ermənistandan müəyyən addımlar gözləyir. Paşinyanın Rusiya səfərini bütün bunların kontekstində dəyərləndirmək olar”.

**Nihat Müzəffər**

# Qərb İranda istəyinə çatacaq

“Etirazların nəticəsində molla rejiminin devrilməsi və hakimiyyətin dəyişməsi ehtimalı da var”



**İranda din xadimləri ilə rejim arasında çatlar yaranır. Bu barədə ABŞ-nin Müharibə Araşdırmaları İnstitutu yazıb. Bildirilib ki, son bir ay ərzində İranda din xadimlərinə qarşı hücumlar artıb:**

“Aprel ayında din xadimlərinə qarşı 4 hücum olub. Belə insidentlər əvvəlki aylara nisbətən bir neçə dəfə artıb”.

Həmçinin qeyd olunub ki, İranda edamların da sayı artıb: ”İran hakimiyyəti son bir həftə ərzində ən azı 42 vətəndaşı edam edib. Bununla bağlı olaraq xüsusilə Sistan və Bəlucistan əyalətlərində rejim əleyhinə əhval-ruhiyyə yenidən güclənə bilər”.

Qərb analitiklərinin fikrincə, ölkədə hakimiyyət əleyhinə etirazlar daha da güclənə bilər.

Qeyd edək ki, bu il fevralın 15-dən İranda tələbə qızların kütləvi zəhərlənməsi halları geniş yayılıb.

Xatırladaq ki, İranda etiraz aksiyaları ötən il sentyabrın 17-də 22 yaşlı Məhsa Əmininin işgəncə nəticəsində öldürülməsindən sonra başlayıb.

**ABŞ-nin Araşdırmalar İnstitutunun açıqlamasını “Şərq”ə dəyərləndirən siyasi şərhçi Kənan Novruzov vurğulayıb ki, İrandakı aksiyalar ya Qərbin əli ilə təşkil olunub, ya da Vaşinqton bu vəziyyətdən istifadə edir:** ”Yəni hazırda Amerika Cənub qonşumuzda baş verən aksiyaların uzanmağında maraqladır və buna təsir etmək gücünə malikdir. Çünki bu gün ABŞ və müttəfiqlərinin üç əsas rəqibi var. Bunlar Rusiya, Çin və İrandır. Artıq Kreml Ukraynada bataqlığa salınıb. Rəsmi Tehran isə daxili aksiyalar ilə zəiflədilir. Bu mənada artıq etirazlar Qərbin maraqlarına uyğundur”.

Analitikin sözlərinə görə, etirazların yaxın zamanlarda səngiməsi gözlənilən deyil: ”Güman edirəm ki, bu proses davam edəcək. Hətta gələcəkdə mitinqlərin daha da kəskinləşəcəyini proqnozlaşdıra bilərik. Çünki bu etirazların sakitləşməsi təkcə rejimdən asılı deyil. Burada kifayət qədər təsir gücünə malik olan kənar qüvvələr də var. Buna görə də konkret nəticələr əldə edilməmiş, aksiyaların başa çatmayacağını düşünürəm. Digər tərəfdən, bu etirazların nəticəsində molla rejiminin devrilməsi və hakimiyyətin dəyişməsi ehtimalı da var. Amma istənilən halda Qərb öz istəyinə çatacaq”.

**Nihat Müzəffər**

# Vaşinqton danışıqları

Zəngəzur dəhlizi layihəsi həll olunmamış problemlər siyahısında qalır



**“Azərbaycan-Ermənistan xarici işlər nazirlərinin Vaşinqtonda təşkil edilən danışıqları sülhün bərqərar olmasına daha çox şansdır və potensiallardan optimal istifadə üçün böyük imkan yaradır”.**

*Bunu siyasi şərhçi Aqşin Kərimov deyib. Ekspert bildirib ki, imkan yaranır, lakin onu reallaşdırmaq potensialları qarşısında tikanlı yollar hələ də qalır:* ”Vaşinqton müzakirələri Azərbaycanın Qarabağ bölgəsindəki ermənilərin rəsmi Bakının tələbləri əsasındakı inteqrasiyasını konstruktiv seçim kimi onların qarşısına qoyur. Çünki Ağ Evin quraşdırdığı danışıqlar masasında Qarabağ erməniləri üçün müstəsna hüquqları özündə ehtiva edən status barədə heç bir şey yoxdur, əksinə, indi status məsələsi həm Rusiyanın, həm də ABŞ-nin gündəliyindən çıxıb. Ancaq gündəmdən çıxmış tezisin yeniləri ilə əvəzlənəcəyi Rusiya-Qərb gərginliyi fonunda üzə çıxa bilər. Ona görə də Vaşinqtondakı gərgin danışıqlardan sonra Moskva gündəliyində nələrin proqramlaşdırıldığına diqqət yetirmək gərəkdir. Azərbaycan ərazi suverenliyinin mütləq təmini yolundakı çətinliklərin öhdəsindən mərhələ-mərhələ gəldikcə, sülh danışıqlarının da rəngi Bakının xeyrinə calanır. Hər bir məqamda, hazırda yekun sülh sənədinin hazırlanması əməliyyatlarına Vaşinqtonun müəlliflik etməsi Azərbaycanın xeyrinə proseslərə töhfə verir. Rusiya isə burada maraqlarını təmin etməyən nələrsə tapa bilər, ona görə də Moskvanın Vaşinqtondakı diskussiyalardan sonra kimə və hansı şəraitdə yaşıl işıq yandırıb-yandırmayacağı qeyri-müəyyən olaraq qalır. Hərçənd ki, Kremllə Azərbaycanın mövqelərini bir-birilə tutuşdurmaq təcrübələrindən çıxış etsək, burada ən çox ziyan çəkəcək tərəfin Ermənistan olacağı şübhəsizdir. Yəni Rusiya regiondakı sülh modelinin Vaşinqton mərkəzli əsaslarını dağıtmaq üçün Ermənistanın əlinə oynasa belə, onun son məqsədi İrəvanı mühafizə etmək deyil”.

**A.Kərimov vurğulayıb ki, təxribat ssenarisi üzrə addımlara gəlincə, Rusiya Ermənistanı da daxildən çalxalandıra biləcək əməllərin müəllifinə çevrilə bilər:** ”İkincisi, Rusiya Azərbaycan-Ermənistan sərhədlərində mümkün toqquşma ehtimalları üzərində fikirləşə bilər. Burada məqsəd sülhü bir həddə qədər pozmaq və dağınıq nizamda özünün tənzimləyici funksiyalarını işə salmaqdır.

Ancaq göz önündə canlandırmaq lazımdır ki, Vaşinqtondakı gündəliyin razılaşdırılması Kremllə həyata keçiriləcək. İstənilən vəziyyətdə Vaşinqtonun proseslərdəki sürətlənən rolu və danışıqların davamının Moskvada gerçəkləşməsi sülh üçün həll yollarının miqyasının genişləndiyindən xəbər verir. Çünki Azərbaycanın səkkiz kəndi üzərindən işğal faktının qaldırılması ilə bağlı Vaşinqtonda müzakirələr gedir, deməli, artıq sülhyaratma əməliyyatları artıq son pillələrinə yaxınlaşır. Normallaşmaya maneələrlə bağlı əlamətlər qalsa belə, vəziyyət görünməmiş dərəcədə irəliyə doğru getmək şansı qazanır. Strateji yanaşmalar üzrə ən vacib məqamlardan biri də Zəngəzur dəhlizi ilə bağlıdır, görəsən, ABŞ bu məsələdə Vaşinqtonda kimin mövqeyini dəstəkləyir?

Hesab etmək olar ki, Zəngəzur dəhlizi layihəsi həll olunmamış problemlər siyahısında qalır və bu, gələcək danışıqlardakı normallaşma prosesi üçün tezisləri əngəlləyə bilər. Deməli, tam və dərhal normallaşmanı gözləmək real deyil, hərçənd ki, Ermənistanın Baş naziri Nikol Paşinyan iyunun 1-də Kişineuda Avropa Siyasi Birliyinin növbəti sammiti çərçivəsində sülh sazişi imzalana biləcəyini deyib. Sülh müqaviləsinin imzalanması Rusiyanın Vaşinqton danışıqlarına verəcəyi reaksiyadan və bu istiqamət üzrə Kreml-Ağ Ev mövqelərinin uzlaşdırılmasından asılı olacaq. Görünür ki, ABŞ və Ermənistan Zəngəzur dəhlizi ilə bağlı Bakının şərtləri fonunda hələlik qəti mövqe sərgiləməyəcəklər. Əgər sülh müqaviləsi imzalansa, dəhlizlə bağlı tənzimləmə mexanizmləri əlavə komponent kimi danışıqlar masasına qoyula bilər”.

**İsmayıl**




# 801 məhkum əfv olundu

## Prezident Azərbaycanın müstəqillik tarixinin ən böyük Əfv Sərəncamına imza atdı

**Prezident İlham Əliyev Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin 100 illik yubileyi münasibətilə Əfv Sərəncamı imzalayıb. Sərəncama əsasən, 801 məhkum əfv olunmuş, onlardan 463 şəxs azadlıqdan məhrumetmə cəzasından, 220 şəxs azadlıqdan məhrumetmə cəzasının çəkilməmiş hissəsinin yarısından, 118 nəfər azadlıqdan məhrumetmə ilə bağlı olmayan digər cəzalardan azad edilib.**

Qeyd edilməlidir ki, bu Sərəncam şamil edildiyi şəxslərin dairəsinə görə müstəqil Azərbaycan Respublikasının tarixində qəbul edilmiş ən böyük əfv aktıdır. Müqayisə üçün qeyd olunmalıdır ki, Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi münasibətilə qəbul edilmiş 2018-ci il 24 may tarixli Əfv Sərəncamı 634 məhkuma şamil edilib. Ən böyük əfv aktının icrası mayın 10-dək davam edəcək. Eyni zamanda bildirilməlidir ki, əfv edilmiş məhkumlardan 14-ü əcnəbidir. Sərəncamla onlardan 12-si cəzadan tam, 2-si isə cəzanın yarı hissəsindən azad olunub. Müvafiq hökmlərə əsasən cəzadan azad olunduqdan sonra 4 xarici məhkumun Azərbaycan Respublikasının hüdudlarından kənara məcburi çıxarılması nəzərdə tutulur. Digər əcnəbi məhkumlar isə milliyyətcə azərbaycanlı və ya ailə üzvləri Azərbaycan Respublikasının vətəndaşı olduğundan məcburi çıxarılma onlara tətbiq edilməyəcək. Əfv edilənlərdən 25 nəfəri qadındır. Vətəndaş və İnkişaf Partiyasının sədri Əli Əliyev və mədəniyyət nazirinin sabiq müavini Rafiq Bayramov da əfv ediliblər. Həmçinin ləğv olunmuş Milli Təhlükəsizlik Nazirliyinin iki əməkdaşı da əfvə düşüb. Ombudsman Səbinə Əliyeva deyib ki, indiyə qədər 69 əfv sərəncamı imzalanıb, 12 Amnistiya aktı qəbul edilib. O bildirib ki, imzalanan sənəd əhatəsinə görə ən geniş əfv sərəncamıdır: "Bu gün çox sevincli gündür. Əfv sərəncamı birbaşa Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlıdır. Onun siyasətinin layiqli davamçısı İlham Əliyev də Ulu Öndərin 100 illiyi ilə bağlı əfv sərəncamı imzaladı. Ombudsman olaraq sərəncama görə təşəkkürümü bildirirəm". S.Əliyeva qeyd edib ki, Ombudsmanın vəsatəti ilə indiyə qədər 864 nəfər əfvə düşüb: "Bu sərəncamda isə 59 nəfər məhkum Ombusmanın vəsatəti ilə azadlığa buraxılır".

Vurğulamaq lazımdır ki, dövlət başçısı cənab İlham Əliyev tərəfindən əfv sərəncamlarının imzalanması, həmçinin amnistiya aktlarının qəbul edilməsi uzun müddətdir ki, ənənə halını alıb. 1995-ci ildən bu günə kimi əfvetmə ilə bağlı 69 fərman və sərəncam imzalanıb, 8987 məhkum əfv olunub. Bu sərəncamlardan 36-sı Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən imzalanıb və həmin aktlar 5885 nəfərə şamil olunub. Bu mənada Prezident İlham Əliyev Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyi münasibətilə də əfv Sərəncamı imzalaması gözlənilirdi. Bunun ilk göstəricisi isə ölkə başçısının Heydər Əliyevin anadan olmasının 100 illiyi ilə bağlı imzaladığı sərəncamla 2023-cü ili "Heydər Əliyev İli" elan etməsi idi. "Heydər Əliyev İli" çərçivəsində böyük tədbirlər planının hazırlanacağı və burada bir çox məqamların öz əksini tapacağı istisna deyildi. Həmin tədbirlər planı çərçivəsində 2023-cü ilin may ayı ərəfəsində cənab Prezident tərəfindən böyük əfv sərəncamı imzalanması da ehtimal edilirdi və belə də oldu. Lakin bir daha qeyd olunmalıdır ki, budəfəki əfv qərarının bundan öncəkilərdən başlıca fərqi şamil edildiyi şəxslərin dairəsinə görə müstəqil Azərbaycan Respublikasının tarixində qəbul edilmiş ən böyük əfv aktı olmasıdır. Prezident İlham Əliyevin Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyi münasibətilə imzaladığı əfv sərəncamı Respublikanın tarixində qəbul edilmiş ən böyük əfv aktı olması ilə yanaşı, həm də böyük humanizm və tolerantlıq nümunəsidir. Çoxları həbsxanalara insanları tərbiyələndirmək, islah etmək üçün bir məkan, obyekt kimi baxsa da, təcrübə göstərir ki, insanları dörd divara məhkum etmək əksinə, onları daha da aqressivləşdirir, psixologiyalarında cəmiyyətə qarşı inamsızlıq və qəzəb formalaşdırır. Həbsxanalar həm də bir çox insanın fiziki və mənəvi-psixoloji sağlamlıqlarına zərbə vurur. Xüsusilə təsadüfən, bilmədən, istəmədən, şüurlu surətdə olmadan yüngül cinayət törətmiş və bundan səmimi-qəlbdən peşman olan insanlar bu vəziyyətlə daha çox üzləşir. Belə insanların cəmiyyətə qazandırılması üçün əfv sərəncamlarının imzalanması olduqca vacibdir. Bütün cəmiyyətlərdə və bütün dinlərdə bağışlamaq, əfv etmək böyüklük kimi xarakterizə edilir.

Demokratiya və İnsan Hüquqları Komitəsinin sədri, hüquq üzrə fəlsəfə doktoru Çingiz Qənizadə deyib ki, Ulu Öndər Heydər Əliyev hakimiyyətə gəldikdən sonra, müstəqillik dövründə insan hüquq və azadlıqlarının təminatı ilə bağlı bir çox addımlar atıb. Hüquq müdafiəçisi bildirib ki, ölüm hökmünün ləğvi, əfv institutunun, amnistiyanın tətbiqi və s. məsələlər hər zaman hüquq müdafiəçilərinin diqqətində olub və alqışlanıb: "Əfv institutu isə hər il verilməklə yüzlərlə, ümumilikdə isə minlərlə insanın azadlığa qovuşmasına səbəb olacaq bir addımın atılması və bunun ənənə halına çevrilməsinin bünövrəsi Ulu Öndər tərəfindən qoyulub. Ümummilli Liderin anadan olmasının yüzilliyini qeyd etdiyimiz bir dövrdə möhtərəm Prezidentimiz İlham Əliyev tərəfindən Əfv Sərəncamının imzalanması ilə bağlı artıq bir neçə gün idi ki, prosesləri izləyirdik. Ümidlərimiz bu gün reallaşdı. Həm də gözləyirdik ki, budəfəki əfv sərəncamı digərlərindən sayına və tərkibinə görə daha geniş olacaq. Bu, belə də oldu. Əfv İnstitutu tarixində ilk dəfədir ki, 801 nəfər məhkum sərəncamın təsir dairəsinə düşdü. Bunlardan 463 nəfəri azadlıqdan məhrum edilmiş şəxslərdir. 220 nəfəri cəzasının çəkilməmiş hissəsinin yarısından azad olundular. 118 nəfər isə azadlıqdan məhrumetmə ilə bağlı olmayan cəzalardan azad edildilər. Biz hüquq müdafiəçiləri bu cür humanist addımları hər zaman alqışlamışıq. Budəfəki Əfv Sərəncamına görə də cənab Prezidentə öz təşəkkürümüzü bildiririk. Sərəncam sadəcə əfv edilən 801 nəfəri deyil, eyni zamanda onların ailə üzvlərinə, qohumlarına, yaxınlarına da bu sevinci bəxş etdi. O baxımdan onminlərlə insan dövlət başçısına minnətdarlıq edirlər".

**İsmayıl Qocayev**

# Əsir hərbçimizə 11,5 il həbs cəzası verildi

## Digər azərbaycanlı əsgər Hüseyn Axundovun "cinayət işi üzrə istintaq" davam edir





## XİN: Girov götürülmüş Azərbaycan hərbçilərinə qarşı qurama iddia və "məhkəmə prosesi"ni qınayırıq

**Ermənistan məhkəməsi əlverişsiz hava şəraitində məhdud görmə səbəbindən yolu azaraq Ermənistan tərəfə keçən və orada əsir saxlanılan Azərbaycan hərbçisi Aqşin Bəbirovu 11,5 il müddətinə azadlıqdan məhrum edib.**

Məlumatı "Sputnik Armeniya" yayıb.

A.Bəbirov "sərhədi qanunsuz keçmək, silah və sursat daşımaqda" ittiham olunub.

Məlumata görə, Ermənistanda əsir saxlanılan digər azərbaycanlı əsgər Hüseyn Axundovun "cinayət işi üzrə istintaq" davam edir.

**Azərbaycan Xarici İşlər Nazirliyi girov götürülmüş Azərbaycan hərbçilərinə qarşı qurama iddia və "məhkəmə prosesi"nə dair şərh verib.**

Cari ilin aprel ayında Naxçıvan Muxtar Respublikasının Şahbuz rayonunun Ermənistanla sərhədboyu ərazisində Azərbaycan Ordusunun itkin düşmüş və Ermənistan tərəfindən əsir götürülmüş əsgərləri Bəbirov Aqşin Qabil oğlu və Axundov Hüseyn Əhliman oğluna qarşı Ermənistanın qurama "məhkəmə prosesi"ni və Aqşin Bəbirovun həbsi ilə bağlı qondarma "qərar"ı qətiyyətlə qınayırıq.

Şərhdə deyilir: "Azərbaycan əsgərlərini qəddar fiziki işgəncələrə məruz qoyan Ermənistan bu kimi qurama "məhkəmə prosesi" vasitəsilə onları, həmçinin mənəvi və psixoloji işgəncələrə məruz qoyur.

Bu cür məsuliyyətsiz davranışı ilə Ermənistan beynəlxalq humanitar hüquqa əsasən daşıdığı hüquqi məsuliyyətə, beynəlxalq ictimaiyyətin girovların azad edilməsi barəsində çağırışlarına və humanizm prinsiplərinə məhəl qoymadığını bir daha nümayiş etdirir.

Ermənistan tərəfinin bu qurama addımı ilə ölkəmizin erməni girovlarının, xüsusilə də yolu azaraq sərhədi keçmiş 10-dan artıq hərbçini heç bir qeyd-şərt irəli sürmədən dərhal geri qaytarılması üzrə etimad quruculuğu tədbirinə qarşılıq verməməsi Ermənistanın bölgədə barışıq və etimad yaradılması tədbirlərində maraqlı olmadığını göstərir. Bu davranışla etimad quruculuğu səylərinə zərbə vurulması məsuliyyəti tam olaraq Ermənistan tərəfinin üzərinə düşür.

Ermənistan beynəlxalq humanitar hüququn kobud şəkildə pozulması ilə müşayiət olunan bu təxribatçı fəaliyyətinə son qoymalı, girov götürülmüş əsgərləri dərhal azad etməlidir.

Girovluqda olan əsgərlərimizin tezliklə azad edilməsi və ailə üzvlərinə qovuşması üçün bütün beynəlxalq ictimaiyyəti, aidiyyəti beynəlxalq təşkilatları və qeyri-hökumət təşkilatlarını Ermənistana ciddi təsir və təzyiq göstərməyə çağırırıq".

# Rusiya hərbi-siyasi elitası parçalanır

## Priqojinin Rusiya ordusunun məğlubiyyətini etiraf etməsi və müdafiə nazirini hədələməsi Putinə mesaj idi



**"Rusiya muzdlu hərbi qruplaşması "Vaqner"in rəhbəri Yevgeni Priqojinin müdafiə naziri və Baş Qərargah rəisini aşağılaması siyasi elita daxilində böhranın kəskin xarakter aldığını göstərir".**

*Bunu "Şərq"ə açıqlamasında politoloq Məhəmməd Əsədullazadə deyib. Analitik bildirib ki, Baxmutda hərbi uğursuzluq siyasi uğursuzluq gətirərək, sistem daxilində açıq fikir ayrılıqlarına gətirib çıxarıb:* "Baxmutda ilişib qalmaqla, ordunun digər ərazilərdə irəliləyişinə mənfi təsir edir. Vaqnerin Baxmutda ordudan fərqli olaraq üstünlüyü müdafiə naziri Sergey Şoyqunun Priqojinin küncə sıxışdırması ilə nəticələnir. Y.Priqojin Ukraynada hərbi qələbələr əldə etdikcə, onun siyasi ambisiyaları artır və müdafiə naziri postuna iddia edə bilər. Həmçinin V.Putin də Vaqnerin üstünlüyü nəticəsində Y.Priqojinin ona qarşı çıxa biləcəyindən narahatdır. Məhz Priqojinin ötən gün Rusiya ordusunun məğlubiyyətini etiraf etməsi və müdafiə nazirini hədələməsi V. Putinə mesaj idi. Demək olar ki, siyasi elita daxilində bir-birilərinə qarşı kompromat savaşı açıq savaşa keçib. Ukraynanın ekshücumları Rusiya ordusunun ağır məğlubiyyəti fonunda Kremldə çaxnaşmalara gətirəcək. Qeyd edim ki, 9 May paradının ləğv edilməsi, siyasi sistem daxilində böhran və təhlükəsizlik problemlərindən irəli gəlir".

**İsmayıl**

# Dilənçiliyin forması əslində dəyişməyib

## Küçə uşaqlarının 90 faizdən çoxu təhsildən yayınır

**Bu gün ölkəmizdə dilənçiliyin forması dəyişib, yəni formanın özü bir qədər yaxşılaşıb". Bunu Milli Məclisin deputatı Elman Nəsirov deyib.**

O deyib ki, əvvəl dilənçilər insana yaxınlaşıb pul istəyirdilərsə, indi əllərində salfet tutub 10 qəpiyə satırlar: "Həmin məbləğə sənə salfet təqdim edir və qarşılığında pulunu istəyir. Bu, bir qədər dilənçiliyin fərqli yanaşmasıdır. Başqa bir növ isə maşın sürərkən müxtəlif istiqamətlərdən uşaqlar anidən hücuma keçirlər və şüşələri təmizləməyə başlayırlar və s. Bu da təhlükəsizlik baxımından müəyyən problemlər yaradır".

**Azərbaycan Uşaqlar Birliyinin sədri Kəmalə Ağazadə isə "Şərq"ə açıqlamasında deputatın dediklərində böyük həqiqət payı olduğunu deyib. AUB sədrinin sözlərinə görə, son vaxtlar işıqforlarda maşın şüşəsi silən, yol kənarlarında salfet satan uşaqların sayı çox artıb**: "Paytaxt küçələrində ailəsini dolandırmağın yükünü kiçik yaşlarından çiyinlərində daşımağa çalışan uşaqlara tez-tez rastlanır. Amma bu, dilənçilik formasının yaxşılaşması deyil. Əslində uşaq hüququnun pozuntusu olan bu sosial problemə qarşı səlahiyyətli qurumlar tərəfindən zaman-zaman tədbirlər görülsə də, problem hələ də qalmaqdadır. Onu deyim ki, həmin tədbirdə mən də iştirak edirdim. Elman Nəsirov əslində bunun müsbət yox, xoşagəlməz bir hal olduğunu deməyi nəzərdə tuturdu. Sadəcə, fikrini düzgün ifadə edə bilməyib. Çünki bu hadisə birmənalı uşaq əməyinin istismarıdır. Ona görə də dilənçiliyin yaxşı forması hesab edilə bilməz. Küçə ticarəti ilə məşğul olan uşaqlar onları istismar edən şəxsləri ələ vermədiyi üçün bu sahədə tədbir görmək olmur. Salfetka satan, maşınların şüşəsini silən uşaqlar arasında sorğu keçirəndə, işləmələrini müxtəlif səbəblərlə əsaslandırmağa çalışırlar. Əksəriyyəti ailəsinə kömək etmək məqsədilə işlədiyini deyir. Onları buna sövq edənlərin məsuliyyətə cəlb olunması üçün uşaqların ifadəsi olmalıdır. Qanunvericiliyə görə, 14 yaşdan yuxarı uşaqlar sağlamlığına ziyan vurmayan əmək fəaliyyəti ilə məşğul ola bilərlər. Amma küçədə salfet satmaq, işıqforda dayanan avtomobilləri silmək qanunvericiliklə tənzimlənmir".



Son vaxtlar işıqforlarda maşın şüşəsi silən, yol kənarlarında salfet satan uşaqların sayı çox artıb

**K.Ağazadənin sözlərinə görə, küçəsə salfetka satan, şüşə silən uşaqların çoxu "Roman qrupu kimi tanıdığımız qaraçılardır:** "Guya ki, "müasirləşiblər". Araşdıranda görürük ki, bu uşaqların zərərli vərdişləri var. Bütün bu problemlərin həlli üçün "roman"larla işləyəcək mərkəzlər olmalıdır". Ümumilikdə, həssas qruplara yönəlik daha geniş sosial proqramlar icra olunmalıdır. Küçə həyatı yaşayan uşaqların harada, hansı vəziyyətdə yaşadıqları mütləq araşdırılmalıdır.

Bu insanları dilənməyə məcbur edən qruplaşmalar mütləq aşkar olunmalıdır".

**Sağlam Cəmiyyət Hərəkatının eksperti, sosioloq Elçin Bayramlı isə dövrün tələbinə uyğun olaraq dilənçiliyin də yeni formalarının meydana gəldiyini deyib. Onun sözlərinə görə, küçədə dilənən insanlar, küçə ticarəti ilə məşğul olan uşaqların 99 faizi mütəşəkkil qruplaşmalar tərəfindən idarə olunur:** "Şəhərdə əllərində gül, salfetka, tum satan uşaqların sayı kifayət qədərdir. Biz bilmirik uşaq həqiqətən ailəsinə kömək etmək üçün çarəsizlikdən uşaq yaşlarından küçə-küçə gəzərək bu işlə məşğul olur, ya sadəcə uşaq əməyinin istismarı ilə məşğul olan cinayətkarlar tərəfindən işlədilir.

Yəni bizim hansısa uşağın halına acıyıb verdiyimiz pullar onların özlərinə çatmır. Təəssüfləndirici haldır ki, hamının gözü qarşısında uşaqlar istismar olunur və cəmiyyət olaraq bizlər də buna şərait yaradırıq. Biz hansısa bir dilənçiyə pul verəndə, uşaqlardan salfetka alanda bir növ "işbaz"ların biznesini stimullaşdırırıq. Onlar görür ki, bu sahədə yaxşı gəlir var. Daha çox uşağı öz çirkin oyunlarına qurban edib, yayın istisində, qışın soyuğunda onları dilənçiliyə sövq edirlər. Ona görə də, küçədə dilənən, uşaqlara pul verməyi düzgün hesab etmirəm. Əgər kimsə onlara kömək etmək istəyirsə, imkanı qədərində yemək almaq, geyim, ayaqqabı vermək daha məqsədəuyğun olar. Ümumiyyətlə, küçə uşaqları problemi dövlətin və cəmiyyətin birlikdə və ciddi şəkildə həll etməli olduğu problemdir. Bu uşaqlarla xüsusi dövlət və qeyri-hökumət təşkilatları məşğul olmalı, onları internat məktəbinə yerləşdirməli və ciddi nəzarətdə saxlamalıdır. Onların sayının azaldılması istiqamətində ciddi işlər görülməlidir. Bu gün o uşaqlar salfeti uzadıb xahişlə, minnətlə pul istəyirlərsə, böyüyəndən sonra bunu artıq başqa cür istəyəcəklər".

Küçələrdə salfetka satan uşaqların heç də hamısının qaraçı olmadığını vurğulayan sosioloqun sözlərinə görə, bəziləri yoxsul ailələrin övladları, ya da ki, valideynini itirmişlərdir: "Bəzilərinin isə evdə xəstəsi olduğu üçün ailənin yükü onların üzərinə düşür. Ona görə də bu cür uşaqlarla bağlı aidiyyəti qurumları məlumatlandırmaq lazımdır ki, dövlət həmin uşaqları normal yaşayışla təmin etsin. Küçə uşaqlarının 90 faizdən çoxu təhsildən yayınır. Bu uşaqlar gələcəkdə uşaq alverinin, zorakılığın, cinsi istismarın qurbanı olurlar. Uşaq 15 yaşına kimi əməyə cəlb edilməməlidir. Ailənin sosial durumu ilə ölkənin aidiyyəti orqanları məşğul olmalıdır. Ailənin iqtisadi durumunun aşağı olması uşağın günahı deyil. Burada söhbət əməkdən yox, istismardan gedir".

**Şəymən**

# Paşinyan Azərbaycanın 8 kəndini qaytarmağa hazırdır

## Erməni Baş nazirin şərti sərhədin 1975-ci il xəritəsinə uyğun müəyyən edilməsinə hesablanıb



**Ermənistanın Baş naziri Nikol Paşinyan Azərbaycanın ərazi bütövlüyünə aid olan anklavlar məsələsinə aydınlıq gətirib. Paşinyan ilk dəfə olaraq Ermənistanın Azərbaycana aid kəndləri işğal etdiyini və nəzarət altında saxladığını etiraf edib. Lakin Baş nazir Ermənistanın Azərbaycanın tərkibində anklavların olduğunu da dilə gətirib: "**

Biz kəndləri Azərbaycana qaytarmağa hazırıq, amma şərtimiz var. Əgər Azərbaycan da bizə məxsus kəndləri qaytarmağa hazırdırsa, biz də hazırıq. 1975-ci ilin xəritələrinə görə, sərhəd xəttini bütün uzunluğu boyunca tanımağa hazır olduğumuzu deyirik". Onun iddialarına görə, hazırda Azərbaycanın nəzarəti altında olan bir sıra kəndlər "Ermənistanın anklavları" hesab olunur: "Bərkaber, Vazaşen, Ayqeovit, Paravakar kəndləri Azərbaycanın nəzarətindədir". Məlumat üçün deyək ki, "Bərbaker" kəndinin əsl adı Bibişdir. Bu kənddə 1988-89-cu illərdə azərbaycanlılar yaşayırdı, Qarabağda erməni separatizmi başlayanda soydaşlarımız deportasiyaya məruz qalıblar. "Vazaşen"in əsl adı Lələkənddir. Tarixi Azərbaycan torpağı olan bu kəndin adı 1978-ci ildə Ermənistan SSR-nin qərarı ilə dəyişdirilərək, Vazaşen qoyulub. "Ayqeovit"un əsl adı Uzuntala, daha sonra Hönüt olub. Ermənilər öz qondarma adlarını veriblər. "Paravakar" isə Tatlı kəndidir. Ermənistan SSR yaranandan sonra tədricən ermənilərin məskunlaşdığı əraziyə çevrilib.

**Siyasi şərhçi Asif Nərimanlı bildirib ki, Azərbaycanın tarixi torpaqları olan həmin ərazilər əslində birbaşa bizim nəzarətimizdə deyil və mövcud sərhəd xəttində yerləşir. Analitikin sözlərinə görə, Nikol Paşinyanın istəyi Azərbaycan Ordusunun geri çəkilməsi və bu kəndlərin üzərindəki nəzarətin aradan qalxmasıdır:** "Diqqətçəkən məqamlardan biri Paşinyanın "Azərbaycanda qalan ərazilər" iddiasında Gədəbəyin Başkənd kəndinin adını çəkməməsidir. Başkənd Azərbaycan torpağıdır, lakin SSRİ dövründə burada ermənilər yaşadığı üçün "erməni anklavı" kimi qəbul olunurdu. 1992-ci ildə ordumuz kəndə nəzarəti bərpa etdi. Ermənistan zaman-zaman Başkəndin onlara məxsus olduğunu iddia edir, 8 kəndin qaytarılması məsələsi gündəmə gələndə də bunu ortaya atırdılar. Hərçənd, Nikolun Başkənd iddiasını yeniləməməsi maraq doğurur. Mümkündür ki, erməni Baş nazir daha real hesab etdiyi əraziləri - sərhəd boyunca ordumuzun nəzarət xəttində yerləşənləri ala biləcəyini düşünür. O baxımdan Bakının 8 kənd tələbinə qarşı bu iddianı ortaya atır. Paşinyanın bu iddiası sərhədin 1975-ci il xəritəsinə uyğun müəyyən edilməsinə hesablanıb. Bu isə xəritələrin saxlanıldığı Rusiya masasının əhəmiyyətini artırır. Rəsmi Bakının mövqeyi isə əsrin əvvəlindəki xəritələrin əsas götürülməsidir. 8 kəndin taleyinin hərbi müstəvidə həll edilməsi variantı da istisna deyil".

İsmayıl Qocayev



**Dünən Milli Məclisin İnsan hüquqları, Hüquq siyasəti və dövlət quruculuğu komitələrinin iclası keçirilib. İnsan alverinə qarşı mübarizə üzrə Milli Koordinatorun illik məlumatının dinlənildiyi iclasda Daxili İşlər Nazirliyinin İnsan Alverinə Qarşı Mübarizə Baş İdarəsinin rəisi, general-mayor Həzi Aslanov, nazirliyin şöbə rəisi Ramil Kazımov və başqa şəxslər iştirak ediblər.**

# Dünya təcrübəsindən istifadə edə bilərik

## "İnsan alveri qurbanları mübarizəyə cəlb edilsin"

*Daxili İşlər Nazirliyinin İnsan Alverinə Qarşı Mübarizə Baş İdarəsinin rəisi Həzi Aslanov bildirib ki, insan alverinə qarşı mübarizədə dövlət və parlament səviyyəsində dəstək bu sahədə uğurlar əldə etməyə imkan verib.* General deyib ki, bu sahədə son 18 ildə Azərbaycanda dünya standartlarına uyğun islahatlar aparılıb: "Qanunvericilik aktları qəbul olunub, ölkəmiz əksər beynəlxalq konvensiyalara qoşulub".

**DİN-in İdarə rəisi layihələrlə bağlı QHT-lərə iradını bildirib:** "Gəncədə sığınacaq tikilməsi üçün sahə ayrılıb. Son 3 ildə QHT-lərə insan alverinə qarşı mübarizə sahəsində ayrılan vəsaitin artırılmasına ehtiyac olduğu barədə fikirlərlə razıdır. Ancaq bir irad da var. Hər il həyata keçirilən layihələr demək olar ki, təkrarlanır. Təqdim olunan layihə tutarlı olmalıdır. Çünki təqdim edilən layihələrin maliyyə tutumu 6-7 min manat olur".

**Parlamentin İnsan hüquqları komitəsinin sədri Zahid Oruc insan alveri ilə bağlı məsələlərə daxili işlər nazirinin çox həssas yanaşdığını, belə şəxslərin əfvinə müsbət yanaşmadığını nəzərə çatdırıb.** O, bu halı təqdir edib: "Prezident Administrasiyasının rəhbəri Samir Nuriyevin sədrliyi ilə keçirilən 4-5 saatlıq iclaslarda əfvlə bağlı müzakirələr gedərkən komissiya üzvləri hər bir məhkumun işinə yüksək ədalət, balans, obyektivliklə baxılıb. Qeyd edim ki, xüsusi olaraq 95 faiz məhkumun işi ilə bağlı daxili işlər naziri kimi Vilayət Eyvazova da müraciət olunub. Mütləq əksəriyyətinə müxtəlif parametrlərdən humanizm göstərilir. Bir çox işlər də məxfi saxlanılır və bu da başadüşüləndir. Çünki cinayət işinin müxtəlif tərəfləri və subyektləri var. Məhz insan alveri ilə bağlı məsələlərdə nazirin çox prinsipial sərt mövqeyini görürük. Bildirir ki, həmin şəxsləri əfv etmək mümkün deyil, çünki sonradan müxtəlif ictimai təhlükəlilik doğuracaq".

**Deputat Elşad Mirbəşiroğlu deyib ki, insan alveri qurbanları insan alverinə qarşı mübarizə tədbirlərinə cəlb edilməlidir:** "Burada dünya təcrübəsindən istifadə edə bilərik. Xaricdə keçmişdə insan alveri qurbanları hazırda bu proseslərə cəlb olunur. Belə olan zaman insan alveri qurbanlarını daha tez həmin şəxsləri müəyyənləşdirə bilər. Gələcəkdə də bununla bağlı işçi qrupu yaradılarsa, həmin şəxsləri bura cəlb etmək lazımdır".

İsmayıl



**Terapevt Leyla Quliyevanın "Şərq"ə açıqlamasına görə, meteohəssas insanlar təbiətin şıltaqlıqlarına, maqnit qasırğalarına, atmosfer havasının təzyiqinə, havanın soyuyub istiləşməsinə çox həssas reaksiya verirlər:** "İnsan təbiətlə çox sıx əlaqədə olduğu üçün təbiətdə baş verən dəyişikliklər də insan orqanizminə təsirsiz ötüşmür. Belə ki, hava şəraitinin kəskin dəyişilməsi, məsələn, güclü şimal küləyinin cənub küləyinə əvəz olunması, temperaturun kəskin artıb azalması, rütubətin artması bir qrup şəxslərin səhhətində problem yaradır. Bu insanlar meteohəssas insan adlanır.

# Geomaqnit qasırğası günü çöldə olmayın!

## Həmin dövrdə ağır yeməklərdən çəkinmək lazımdır

**Bir müddətdir davamlı olaraq maqnit qasırğası ilə bağlı əhaliyə ciddi xəbərdarlıq edilir. May ayı ərzində də bir neçə zəif və bir güclü maqnit qasırğası gözlənilir.**

Bakı Dövlət Universitetinin (BDU) Fizika fakültəsinin Astrofizika kafedrasının məlumatına görə, 4-6 may tarixlərində Güneşin səthində bir sıra oblastlarda davamlı olaraq M-sinif alışmalar baş verib. Bu səbəbdən geomaqnit sahə mayın 8-də G2 (orta) maqnit qasırğa səviyyəsində (gündüz saat 10.00-dək), mayın 9-da G1 (mülayim) və daha zəif, mayın 10-da isə aktiv səviyyədə olacaq. 04-05 may tarixlərində yaranmış tac dəliklərindən yüksək sürətli plazma zərrəcikləri selinin Yerdən keçməsi geomaqnit şəraitin həyəcanlaşmasını bir qədər də gücləndirib. LASCO (Large Angle and Spectrometric Coronagraph - Geniş bucaqlı və spektrometrik koronoqraf) C2 koronoqrafı vasitəsi ilə Yerə yönəlmiş hər hansı tac kütlə atılması (CME -Coronal Mass Ejection) müşahidə olunmayıb. Mayın 8-də Yerdə maqnit qasırğasının loqarifmik indeksini xarakterizə edən Kp əmsalının orta qiyməti 3-5, mayın 9-10-da 2-4 intervalında dəyişəcək.

Bu günlərdə risk qrupuna daxil olan xəstələrin, yaşlı insanların və uşaqların səhhətində müəyyən narahatlıq-diskomfort halı güclənə bilər. Belə hallarda təşvişə düşmədən həkim nəzarəti altında profilaktik tədbirlərin görülməsi, fiziki və psixoloji yüklənməni azaldaraq fəal istirahətə üstünlük verilməsi tövsiyə olunur.

Güneşin aktivliyi nəticəsində yaranan və Yer kürəsini bürüyən güclü maqnit qasırğasının G4 səviyyəsinə çatdığını iddia edən mütəxəssislər bu cür hava şəraitinin hipertonik xəstələr üçün çox təhlükəli olduğunu deyib. Belə xəstələrə təzyiqi normallaşdıran dərmanlarla yanaşı, yüngül sakitləşdirici vasitələr də qəbul etmək məsləhətdir. Əks halda güclü pozuntular ürək-damar xəstəliklərindən ölüm riskini artırır.

Qeyd edək ki, müxtəlif tədqiqatlar nəticəsində məlum olub ki, Güneşin yüksək aktivliyi olan illərdə miokard infarktından ölüm halları təxminən 5 faiz, kəskin koronar sindromlu insanlar arasında isə ölüm halları 1,6 dəfə artıb. Bundan əlavə, geomaqnit pozğunluqları olan günlərdə ürək aritmiyaları ilə xəstəxanaya yerləşdirilənlərin sayında artım müşahidə olunur və qan təzyiqinin artması daha tez-tez müşahidə olunur.

Meteohəssas insanlar daha çox ürək-damar xəstəlikləri, tənəffüs sistemi xəstəlikləri, revmatoloji sistem xəstəliklərindən əziyyət çəkirlər.

**Bacardıqca balıq, tərəvəz yeməkləri və sıyıq yeməli, təbii antioksidantların qəbulu artırılmalıdır**

Maqnit qasırğasının təsirləri özünü əsasən bir neçə gün bürüzə verir. Daha çox meteohəssas insanlarda təzyiqin birdən-birə dəyişməsi qeydə alınır. Bu müddətdə tamamilə sağlam insanlarda belə, qan təzyiqinin yüksəlməsi halları olur.

Geomaqnit qasırğası gözlənilən günlərdə Güneş şüalarının birbaşa təsiri altında, açıq havada olmamağı, saat 10-dan 17-18-ə qədər bayıra çıxmamağı, sərin yerdə vaxt keçirməyi, gün ərzində 2 litrədək maye qəbul etməyi tövsiyə edilir. Təzyiq yüksəlməsi, ürək tutmaları, başqa hər hansı narahatlıq yaranarsa, mütləq həkimə müraciət etmək lazımdır".

**Həkimin müşahidəsinə görə, hipertoniklərin qan təzyiqi qalxır, hipotoniklərdə isə əksinə, düşür. Bu xoşagəlməziyyin qarşısını almaq üçün hipertoniklərə çoxlu su içməyi və duzdan istifadəni azaltmağı tövsiyə edirlər:** "Çünki duz orqanizmdə mayeni saxlayır və təzyiqin artmasına səbəb olur. Hipotoniklərə isə eleuterokokk və çin cır limonu (limonnik) məcunundan istifadə məsləhət görülür. Eyni zamanda nikotin qəbulu dayandırılmalıdır. Xüsusən ürək xəstələri əllərinin altında "fövqəladə vəziyyət" üçün dərman saxlamalıdırlar. Səhər çarpayıdan qəfil durmamalıdırlar. Trombların yaranmasının qarşısını almaq üçün aspirin qəbul edilməlidir. Yuxusuzluq, nevrozluq, yüksək həyəcan halında - evkalipt, valerian, melissa, damotu məcunundan və aloye şirəsindən istifadə etmək olar. Qasırğa dövründə ağır yeməklərdən çəkinməli, bacardıqca balıq, tərəvəz yeməkləri və sıyıq yeməli, təbii antioksidantların qəbulu artırılmalıdır. Otlarla, yağlarla vanna, yaxud kontrast duş qəbul etmək olar. Meteohəssas insanlar həmçinin belə günlərdə yaxşı yatmalı, fiziki və əqli yüklənmədən qorunmalıdırlar, idmandan, mağazalarda uzun-uzadı gəzməkdən və yaxud bağ-bostan işlərindən çəkinməlidirlər".

Şəymən

# "Müstəqillik dövründə ilk dəfədir bu qədər insan əfv edilir"

## Novella Cəfəroğlu: "Humanist mövqeyinə görə ölkə başçısına təşəkkür edirik"

**Prezident İlham Əliyev məhkum edilmiş bir sıra şəxslərin Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin 100 illik yubileyi münasibətilə əfv olunması haqqında Sərəncam imzalayıb.**

Qeyd edək ki, bu sərəncam şamil edildiyi şəxslərin dairəsinə görə müstəqil Azərbaycan Respublikasının tarixində qəbul edilmiş ən böyük əfv aktıdır.

Sərəncama əsasən, 801 məhkum əfv olunub, onlardan 463 şəxs azadlıqdan məhrumetmə cəzasından, 220 şəxs azadlıqdan məhrumetmə cəzasının çəkilməmiş hissəsinin yarısından, 118 nəfər azadlıqdan məhrumetmə ilə bağlı olmayan digər cəzalardan (azadlığın məhdudlaşdırılması, islah işləri, cərimə cəzaları və cəzaya şərti məhkum edilmiş şəxslər) azad edilib.

**801 nəfərin ailəsinə qayıtmasının çox böyük addım olduğunu deyən hüquq müdafiəçisi Novella Cəfəroğlu**



**"Şərq"ə bildirib ki, müstəqillik dövründə ilk dəfədir bu qədər insan əfv edilib:** "Biz bu hadisəni çox gözəl qarşılayırıq. Sadəcə olaraq siyasi motivlə tutulanların az hissəsi bu sərəncamdan yararlanıb. Yəni Əfv Komissiyası siyasi məhbus məsələsində daha həssas olmalı idi. Çünki bizim siyahımızda xeyli sayda siyasi məhbus var idi. Düzdür, xeyli adam azad edilib. Ümumiyyətlə, bizim 29 nəfərlik siyahıda 10 nəfərdən çox məhbus sərəncamdan yararlanıb. Lakin biz komissiyanın üzvlərindən xahiş etmişdik ki, əfv sərəncamından daha çox siyasi məhbus yararlansın. Çünki sabah Avropa İttifaqı, BMT və Qərb bizi siyasi məhbusların sayının çoxluğunda günahlandıra bilər.

**N.Cəfəroğlu əlavə edib ki, gələcəkdə Ədliyyə Nazirliyi və Prokurorluqla əməkdaşlığa davam edəcəklər:** "Bu əməkdaşlıqla siyasi motivlə həbs edilənlər və ömürlüklərin növbəti əfv sərəncamından yararlanması üçün əlimizdən gələni edəcəyik. Ümumilikdə isə çox vacib bir əfv sərəncamıdır. Biz hüquq müdafiəçiləri olaraq bu addımı alqışlayır və humanist mövqeyinə görə ölkə başçısına təşəkkür edirik".

Nihat Müzəffər

# Sənədi olmayan 926 uşaq doğulub

## Nikahdankənar uşaqların bu qədər çox olmasının səbəblərindən biri də erkən evliliklərdir



**Milli Fəaliyyət Planına uyğun olaraq ölkənin bütün inzibati ərazi vahidlərinin icra nümayəndəlikləri tərəfindən doğum barədə məlumatların "Azərbaycan Respublikası Əhalisinin Dövlət Reyestri" informasiya sisteminə ötürülməsi üçün müvafiq texniki imkanların yaradılması və bu sistemə 1.389 nümayəndəliyin qoşulması - respublikada doğumların vaxtında qeydə alınmasını və əhatəliliyini təmin edib.**

Bu, Milli Məclisin İnsan hüquqları və Hüquq siyasəti və dövlət quruculuğu komitələrinin birgə iclasında müzakirəyə çıxarılan "İnsan alverinə qarşı mübarizə üzrə Milli Koordinatorun illik məlumatı"nda yer alıb. Qeyd edilib ki, nəticədə 2022-ci ildə 5.381 uşaq səyyar qaydada doğum evlərində dövlət qeydiyyatına alınıb.

Eyni zamanda qeydiyyat şöbələrinin və onların bu işə cəlb etdikləri icra nümayəndəliklərinin birgə fəaliyyəti ilə əvvəlki illərdə doğulmuş, lakin müvafiq sənədləri olmayan 926 uşağın doğum faktı müəyyənləşdirilib qeydə alınıb. Qarşıda duran vəzifələrdən biri də insan alverinə qarşı mübarizədə görülmüş işlərin ictimaiyyətə çatdırılması olub.

Ekspertlərin fikrincə, sənədi olmayan uşaqların əksəriyyəti qeyri-rəsmi münasibətlərdən dünyaya gələn uşaqlardır. Onların arasında şəxsiyyət vəsiqəsi olmayan valideynlərin uşaqları da var.

**"Təmiz Dünya Qadınlara Yardım" İctimai Birliyinin sədri Mehriban Zeynalovanın sözlərinə görə, bəzi ailələrin məsuliyyətsizliyi, eləcə də evdə doğuş halları bəzən uşaqların sənəd ala bilməməsinə gətirib çıxardır:** "Dünyaya gəlmiş körpənin qeydiyyata salınmamasının müxtəlif səbəbləri olur. Burada qeyri-rəsmi nikahdan doğulanlar, atalığın müəyyən olunmaması, evdə doğuş halları, baxımsız körpələr, valideynin imtina etdiyi körpələr, regionda doğulub Bakıda yaşayan, yaxud əks halın yaşanması səbəbləri var ki, bu kimi hallarda körpələr qeydiyyatdan kənar qalır və heç bir sənədləri də olmur. Nikahdankənar uşaqların bu qədər çox olmasının səbəblərindən biri də erkən evliliklərdir. Qızlar nikah yaşı tamam olmadan ərə verilir və bu zaman doğulan uşaqlar nikahsız kimi qeydiyyata alınır.

Bəzi uşaqlar 10 yaşından sonra sənəd ala bilir. Nəticədə təhsil müəssisəsi uşağın yaşının çox olmasını əsas gətirərək onu məktəbə qəbul etmir. Həmin nüanslar yuxarıda sadalanan amillərlə yanaşı, valideynlərin təhsil səviyyəsinin, dünyagörüşünün aşağı olması səbəbindən də baş verir".

Hüquq müdafiəçisinin sözlərinə görə, sənədsiz uşaqlar bir çox hallarda məhkəmə prosesləri zamanı aşkarlanır: "Atalığın müəyyənləşməsi, yaxud aliment təyini üçün məhkəməyə müraciət edildikdə məlum olur ki, körpənin heç bir sənədi yoxdur. Həkimə, poliklinikaya müraciət edildikdə sənəd tələb edilir. Son zamanlar icbari tibbi sığorta üçün müraciətlərin artması da sənədsiz körpələrin aşkarlanmasına yol açır. Bağçaya, məktəbəqədər hazırlığa, hətta məktəbə qeydiyyat üçün körpənin sənədi tələb edildikdə, valideyn "ayılır" ki, uşağın hələ də sənədi yoxdur. Uşaq gələcəkdə hər hansı problemlə üzləşməsin deyə, mütləq qeydiyyata alınmalıdır ki, müvafiq sənədləri də olsun, vətəndaşlığı da müəyyənləşsin".

Şəymən

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Azərbaycan Respublikasının dünya birliyinə inteqrasiyası, region ölkələri və digər dövlətlərlə, beynəlxalq təşkilatlarla əməkdaşlığının inkişaf etdirilməsi;**



# Azərbaycan regionda sülh və sabitlik istəyir

## Cənubi Qafqazda sülhün təmin olunması Avropa İttifaqının təhlükəsizliyinin də təmin olunmasına yol açır

**Bir neçə gün əvvəl Brüsseldə IV Avropa İttifaqı-Azərbaycan Təhlükəsizlik Dialoqu keçirilib. İclas Avropa Xarici Fəaliyyət Xidmətinin Baş katibinin siyasi məsələlər üzrə müavini Enrike Mora və Azərbaycan Prezidentinin köməkçisi Hikmət Hacıyevin həmsədrliyi ilə keçirilib. Avropa İttifaqı (Aİ) Azərbaycanla əməkdaşlığı gücləndirməkdə maraqlı olduğunu təsdiqləyib. Görüş iştirakçıları Ermənistan və Azərbaycan arasında münasibətlərin normallaşdırılması, regional təhlükəsizlik ilə bağlı məsələləri və regionda sülhün, sabitliyin qorunmasında Aİ-nin rolunu müzakirə ediblər.**

Bundan başqa, xarici siyasət, təhlükəsizlik və mümkün gələcək əməkdaşlıq ətrafında müzakirələr aparılıb. O cümlədən kibertəhlükəsizlik və hibridtəhlükəsizlik, ekstremizm və terrorizmlə mübarizə, kosmik fəaliyyət sahəsində qarşılıqlı maraq doğuran məsələlər ətrafında konstruktiv müzakirələr gedib. Görüşdə Azərbaycanın etibarlı enerji tərəfdaşı kimi rolu qeyd olunub. E.Mora bildirib ki, Aİ Azərbaycanla xarici və təhlükəsizlik siyasəti məsələlərində əməkdaşlığın gücləndirilməsində maraqlı olduğunu, xüsusilə Rusiyanın Ukraynaya qarşı müharibəsi nəticəsində yaranmış hazırkı çətin beynəlxalq şəraitdə sülh, təhlükəsizlik və sabitlik naminə işləməyə hazır olduğunu təsdiqləyib: "Aİ sabit və dinc Cənubi Qafqazın dəstəklənməsinə töhfə vermək məqsədini rəhbər tutur. Aİ-nin əsas marağı Ermənistanla Azərbaycan arasında münasibətlərin normallaşmasına dəstək verməkdir. Aİ Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin yardımı ilə üçtərəfli Brüssel formatı da daxil olmaqla, sülh prosesini dəstəkləməyə hazırdır".

Hikmət Hacıyev Azərbaycanın Aİ-nin regionda etibarlı tərəfdaşı olduğunu vurğulayıb: "Azərbaycan Avropanın enerji təhlükəsizliyinə mühüm töhfə verir. Üstəlik, Azərbaycan regionda sülh və sabitliyi fəal şəkildə təşviq edir, terrorizm, radikalizm, qeyri-qanuni miqrasiya və narkotiklərin qanunsuz dövriyyəsi ilə mübarizədə qlobal səylərə dəstək göstərir". Prezidentin köməkçisi xatırladıb ki, hazırda Azərbaycan öz ərazilərində misli görünməmiş miqyasda yenidənqurma və humanitar minatəmizləmə işləri aparır: "Biz minatəmizləmə sahəsində Aİ-nin maliyyə dəstəyini yüksək qiymətləndiririk. Azərbaycan Ermənistana ərazi bütövlüyü və suverenliyinin qarşılıqlı tanınmasına əsaslanan sülh müqaviləsinin beş əsas prinsipini təqdim edib. Azərbaycan Ermənistanla münasibətlərin normallaşdırılması təşəbbüslərini, o cümlədən Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin köməyi ilə Brüssel sülh prosesini dəstəkləyir". Görüşün sonunda Aİ və Azərbaycan nümayəndələri hər iki tərəf və bütün region üçün aktual olan məsələlər üzrə mütəmadi fikir mübadiləsini davam etdirmək barədə razılığa gəliblər.

Ümumiyyətlə, son günlər Azərbaycan ilə Avropa İttifaqı arasındakı münasibətlərdə yeni səhifənin açıldığının şahidi oluruq. Avropanın siyasi paytaxtında - Brüsseldə aparılan müzakirələr regionda yeni reallığın formalaşdığının və artıq hamının bunu qəbul etdiyinin göstəricisidir. Azərbaycan regionda etibarlı və önəmli tərəfdaş kimi qəbul olunur. Prezidentin köməkçisi Hikmət Hacıyevin Avropa İttifaqı Siyasi məsələlər və Təhlükəsizlik Komitəsinin sədri Delfin Pronkla görüşü də səmərəli keçib. Avropalı qadın diplomat tviterdə bu barədə yazıb: "Bu formatdakı ilk görüşlərində Azərbaycan və Avropa İttifaqı Siyasi məsələlər və Təhlükəsizlik Komitəsi səfirləri Aİ-Azərbaycan əməkdaşlığı, Ermənistan-Azərbaycan normallaşma prosesi və regional təhlükəsizlik məsələləri üzrə səmərəli müzakirələr aparıblar". Azərbaycan həmçinin Avropa İttifaqına üzv ölkələrlə də münasibətlərin inkişafına böyük önəm verir. İttifaqa üzv ölkələrin üçdəbirinin Azərbaycanla strateji tərəfdaşlıq əlaqələrinə malik olması, müxtəlif sahələrdə bərabərsəviyyəli əməkdaşlığın qurulması da ölkəmizin Aİ ilə münasibətlərinin inkişafında mühüm rola malikdir.

Azərbaycanla Avropa İttifaqı (Aİ) arasında qarşılıqlı hörmət və maraq prinsipləri əsasında münasibətlərin yeni inkişaf səviyyəsinə yüksəldilməsi Azərbaycanın xarici siyasətinin prioritetlərindəndir. Avropa İttifaqı da Azərbaycanın müəyyənləşdirdiyi siyasi mövqeyi dərk edir, mövcud reallıqları qəbul edir, milli maraqlarımızı nəzərə alır. Çünki Azərbaycanla münasibətlərin gücləndirilməsi Avropa İttifaqı üçün regional əlaqələrin genişləndirilməsi baxımından mühüm önəm daşıyır. Azərbaycan müstəqilliyini bərpa edəndən Avropa ilə əlaqələri genişləndirməyə üstünlük verib. Ölkəmiz üçün bir çox sahələrdə olduğu kimi, Avropa İttifaqı ilə münasibətlərin inkişafı məsələsində də əsas dönüş nöqtəsi Ulu Öndər Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra olub. Ümummilli Liderimiz Avropa İttifaqı ilə münasibətlərin inkişaf etdirilməsinə xüsusi diqqət yetirib. 1996-cı ildə Azərbaycanla Aİ arasında Tərəfdaşlıq və Əməkdaşlıq Sazişi imzalanıb. 1999-cu ildə qüvvəyə minən bu saziş siyasi dialoq, sərmayə, qanunvericilik, elm, mədəniyyət, eləcə də ticarət sahələrini əhatə edib, münasibətlərin yeni mərhələyə keçməsinə zəmin yaradıb. 2000-ci ildə Azərbaycanın Aİ yanında nümayəndəliyi yaradılıb. 2004-cü il Azərbaycanla Avropa İttifaqı arasındakı münasibətlərin inkişafı baxımından ikinci dönüş nöqtəsi olub. Həmin il Azərbaycan Avropa İttifaqı Qonşuluq Siyasətinə (AQS) daxil edilib. 2006-cı ildə tərəflər arasında qarşılıqlı əlaqələrin gücləndirilməsi, təhlükəsizlik və sabitliyin, o cümlədən əhalinin rifah səviyyəsinin dəstəklənməsi baxımından "Avropa İttifaqı-Azərbaycan Fəaliyyət Planı" adlı növbəti sənəd imzalanıb. 2009-cu ildə isə respublikamız Aİ-nin Şərq Tərəfdaşlığı (ŞT) proqramına daxil edilib. Azərbaycan ilə Avropa İttifaqı arasında 2018-ci il iyulun 11-də "Tərəfdaşlıq prioritetləri" sənədinin paraflanması isə tərəflərin qarşılıqlı hörmətə, bərabərsəviyyəli əməkdaşlığa əsaslanan əməkdaşlığın inkişafında maraqlı olduqlarını əyani şəkildə nümayiş etdirmiş oldu.

**Millət vəkili Azər Badamov "Şərq"ə bildirib ki, Azərbaycan Avropa İttifaqının Cənubi Qafqazda əsas tərəfdaşıdır. Deputatın sözlərinə görə, son vaxtlar dünya siyasətində baş verən çatlar Avropa İttifaqı üçün Azərbaycanın əhəmiyyətini daha da artırıb:** "O cümlədən Avropa İttifaqının enerji təhlükəsizliyinin təminatında Azərbaycan əvəzssiz rol oynayır. Azərbaycan qazının Avropaya çatdırılması və bərpa olunan enerjisinin təchizatı ilə bağlı layihələrin razılaşdırılması perspektivdə münasibətlərimizin daha da möhkəmlənməsinə yol açacaq. Avropa İttifaqı əməkdaşlığımızın möhkəmlənməsi üçün regionda sabitliyin təmin olunmasına da önəm verir. Bir neçə gün əvvəl Brüsseldə IV Avropa İttifaqı-Azərbaycan Təhlükəsizlik Dialoqunun keçirilməsini, Ermənistan-Azərbaycan arasında münasibətlərinin normallaşdırılmasını, regional təhlükəsizlik, bölgədə sülhün, sabitliyin qorunmasında Aİ-nın rolunun müzakirə edilməsinin əhəmiyyətli olduğunu hesab edirəm. Çünki Azərbaycan müharibənin başa çatdığını elan etmiş və Ermənistanla sülh müqaviləsi bağlamasının təşəbbüskarıdır. Biz sülh və sabitlik istəyirik. Bu sülh və sabitlik ancaq Azərbaycanın suverən ərazisinin bütövlüyünün qorunması ilə yaranmalıdır. Azərbaycanın sülhün bağlanması üçün Ermənistana təqdim etdiyi 5 prisip beynəlxalq normalara uyğundur. Bu təşəbbüsləri dəstəkləyərək regionda sabitliyə töhfə vermək istədikləri hər bir təşəbbüsü dəstəkləyirik. Hesab edirəm ki, regionumuzda sülh, sabitlik və təhlükəsizliyi dəstəkləyən hər bir tərəf ancaq Ermənistana təzyiq göstərməli və prosesi sürətləndirməlidir. Cənubi Qafqazda sülhün təmin olunması Avropa İttifaqının təhlükəsizliyinin də təmin olunmasına yol açır".

**İsmayıl Qocayev**

**Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub**

# "Yiyəsiz adam"

## Dünyada ən böyük dəhşət sahibsiz qalmaqdır

**Məşhurlar nə qədər ki, sağdır, həyatları göz önündə, həm də xalqın "dilində-dişin"də olur. Vəfat edəndən sonra isə övladları məşhur valideynlərinin həyatını sanki davam etdirir. "Filankəs nə işlə məşğuldur, necə adamdır", düşünən çox az olur, adətən "filankəsin oğlu, filankəsin qızı bunu elədi, onu elədi " deyib övladlarından əl çəkmək istəmir cəmiyyət. Qəribə, hətta qəbuledilməz hesab edilə bilər, eyni zamanda həm də təbiidir. Bütün cəmiyyətlər belədir, təkcə bizlər yox. Məşhursansa və ya buna çalışırsansa, xalqın gözünün üzərində olacağına da gərək qatlanasan.**

Mərhum Xalq artisti, sözün böyük mənasında Gülüş Ustamız Səyavuş Aslanın oğlu Çingiz Aslanovun vəfatı da bu qəbildən oldu. Zatən Siyavuş Aslanın səhnədənkənar həyatı sağlığında da, vəfatından sonra da söz-söhbət, müxtəlif şayiələr mövzusu olmuşdu. Bu nəhəng aktyorun ailə həyatının puç olduğu, özü kimi totuş, şirin, gülərüz həyat yoldaşı, həm də həmkarı - səhnə yoldaşı Ofeliya Aslanla ayrılmaları, bir evdə iki yad insan kimi yaşamaqları məlum idi. Sonra daha da ağır xəbərlər yayıldı. Ofeliya xanım naməlum, qəribə xəstəliyə tutuldu, 2010-cu ildə vəfat etdi. Səyavuş Aslan da 3 il sonra dünyasını dəyişdi. Valideynlərinin sağlığında da bu aktyor ailəsinin övladları barədə o qədər də müsbət məlumatlar olmayıb. Hansısa oğlunun içkiyə, bəlkə də yanılırıq, hətta qumara və narkotik maddəyə qurşanması xəbərləri yayılırdı. Elin ağzı torba deyil, büzəsən. Deyirdilər, guya yaşadıqları mənzili girov qoyub. Sonu da belə. Onu TƏBİB küçədən xəstəxanaya apardı. TƏBİB-in mərhum Xalq artisti Səyavuş Aslanın oğlu Çingiz Aslanovun ölümü ilə bağlı məlumatı belədir: Çingiz Səyavuş oğlu 27.04.2023-cü il tarixində Nəsimi rayonu ərazisindən çağırış əsasında TƏBİB-in tabeliyindəki Bakı şəhəri Təcili və Təxirəsalınmaz Tibbi Yardım Stansiyasının briqadaları tərəfindən küçədən təxliyə olunub. Məlumata görə, ona Kliniki Tibbi



Mərkəz, 14 nömrəli Birləşmiş Şəhər Xəstəxanasında, eləcə də Sabunçu Tibb Mərkəzində zəruri tibbi xidmətlər göstərilib. Aparılan reanimasyon tədbirlərə baxmayaraq, 29.04.2023-cü il tarixində bioloji ölüm baş verib. Ona infeksion hepatit, qaraciyər sirrozu, assit diaqnozları qoyulub. Nəşi Məhkəmə Tibbi Ekspertiza və Patoloji Anatomiya Birliyinin Sabunçu şöbəsinə təhvil verilib". Aktyorun oğlunun nəşi 1 həftə morqda qaldı. Çingiz Səyavuş oğlu sosial şəbəkələrdə "yiyəsiz adam" kimi təqdim olundu: "İnsan faciəsi: Siyavuş Aslanın oğlu vəfat edib, nəşini təhvil alan yoxdur". Camaat da ki "himə" bəndmiş kimi, "asıb-kəsməyə" başladılar: bivec övladlara dərs olsun; vaxtında tərbiyə vermək lazım idi; Mədəniyyət Nazirliyi hara baxır?!. Hətta nazirlik də suçlandı ki, meyit qalıb ortada. Qardaşı Eldar Aslan görünənədək!

**"Qardaşımın öldüyünü saytlardan öyrəndim". Bunu "Nyus24.az"a açıqlamasında Siyavuş Aslanın oğlu Eldar Aslan deyib. O bildirib ki, Çingiz Aslanovun 1 həftədir morqda qalmasından xəbəri olmayıb:** "Çingizin vəfatından xəbərim olmayıb. Dünən saat 11-12 arası jurnalistlərdən biri zəng elədi. Çingizin vəfatı ilə bağlı xəbərlər yayıldığını dedi və başsağlığı verdi. Mən inanmadım. Düşündüm ki, yalan xəbər ola bilər. Ona da dedim ki, inanmıram, doğru xəbər ola bilməz. O, həmin xəbərin linkini mənə göndərdi. Ondan sonra dəqiqləşdirdim, bildim ki, Çingiz vəfat edib. Onun neçə vaxt morqda qaldığından ümumiyyətlə xəbərim olmayıb. Xəbəri alandan sonra Kübra Əliyeva, Afaq Bəşirqızı Teatr Xadimləri İttifaqına və Mədəniyyət Nazirliyinə dedilər". Çingiz Aslanın qardaşının vəfatı ilə bağlı belə bir açıqlaması da var: "Vallah, xəbərim yoxdur. Ailəsi olaraq xəbər versəydilər, bilərdik. Deyirlər ki, 5 gündür dünyasını dəyişib, nə əcəb bu 5 gündə sosial şəbəkələrdə yayılmadı? Kimsə mənə zəng etmədi? Bizim ailə qəbiristanlığımız yoxdur. Atamı Fəxri xiyabanda dəfn ediblər, anamı isə Yasamal qəbiristanlığında. Anamın yanında da yer yoxdur. Onsuz da bu yolu götürmüşdü, ona doğru gedirdi. Başqa cür olması mümkün deyildi. Bu insan 60 yaşında da pis vərdişlərindən əl çəkmədi".

Eldar Aslan qardaşı ilə münasibətinin heç vaxt yaxşı olmadığını bildirib:

"Əslində böyük qardaş o idi. Böyük qardaş atanın yarısı deməkdir. Mən əlimdən gələni edirdim. Amma o heç nə etmirdi. Mənim onunla aramda qardaşlıq olmayıb. Barmaqla sayaram ki, mən bu insanı neçə dəfə görmüşəm. Həyatının 20 ilini həbsxanada yatıb. Evdə də tapılmırdı. Ondan qayğı görməmişəm. Əvvəldən aramızda soyuqluq var idi. Atam da heç sağlığında qoymurdu ki, onunla oturub-durum. Deyirdi ki, "nə badə həbsxanaya yanına gedəsən". Bir-iki dəfə atamla getmişdim. Bir atanın övladıyıq. Bir qardaş kimi boynuma nə düşürsə, onu da etməliyəm". Eldar Aslan əlavə edib ki, hazırda işsizdir: "2019-cu ildə pandemiya olandan Moskvadan aralanıb, Bakıya gəldim. İşimi itirdim. İndiyə qədər iş-güc tapa bilmirəm ki, kirayə pulumu verə bilim. Var-dövlət istəmirəm, normal həyat sürmək istəyirəm. Savadıma, təcrübəmə uyğun iş istərdim. Yaşımın çox olduğunu bilib işə götürmürlər".

Nəhayət, Mədəniyyət Nazirliyi hərəkətə keçdi. Akademik Milli Dram Teatrı, Yasamal Rayon İcra Hakimiyyəti məsələni diqqətində saxladılar. Dəfnlə bağlı bütün məsələlərə kömək göstərildi. Məsələ ilə mədəniyyət nazirinin müşaviri Oleq Əmirbəyov məşğul oldu. Çingiz Səyavuş oğlu nəhayət dünən Təzə Pir məscidindən Yasamal qəbiristanlığına son mənzilə yola salındı. Və Yasamal qəbiristanlığında, anası Ofeliya Aslanın məzarı yanında dəfn edildi.

**Həmkarımız İradə İsaq da bir ailənin faciəsi barədə yazıb:**

"Səyavuş Aslanın 2 oğlu vardı: Çingiz və Eldar. Dəfələrlə evlərində olmuşam onların, hər iki qardaşla ən yaxşı vaxtlarında həmsöhbət olmuşam. İndi hamı yazır: "nankor övladlar", "böyük aktyorun baxılmayan oğlanları", "evdən oğurlanan pullar", "Səyavuş milyon qazanırdı, yaxşı ata olub..." Bir ailənin içini kim bilir? Qardaşlar evlənmişdilər də. Eldar özünü dinə verməklə xilas edə bildi. Və bir də vətəndaş kimi ona baxacaq ölkəyə, Kanadaya sığındı. Çingiz zəif çıxdı. O da getməli idi. Zəif olan o deyildi əslində. Ailə münasibətləri idi. Səyavuş bəylə Ofeliya xanım övladlarının ən vacib çağında - ərgənlik dönəmində düşmən oldular, amma boşanmadılar. Bir evin qapısına iki ad yazılmışdı. Çəkmişdim bunu - bir qapıya Siyavuş Aslan, o biri qapıya Ofeliya Aslan. Sonra familiyasını da dəyişdi Ofeliya xanım, Əfqanlı oldu, atası Rza Əfqanlının soyadını geri götürdü. Və bu evdə iki ərgən oğlan böyüyürdü. Hamının yazdığı kimi, var-dövlət vardı. Amma o evdə sevgi, övladlarına qayğı, onları məktəbə yola salma, problemləri olanda dinləmə, ərgənlik çağlarında qoruyan bir ana və bir ata yox idi. Pul var idi, sevgi yox idi. Hansı vacibdir desəm? Hamı pulmu deyəcək?! Bir az pul vardı deyə, pis dostlar pis yönlərə dartdılar bəlkə. O ailədə bir faciə yaşanırdı. Ofeliya xanımla bağlı bir veriliş hazırlamışdım, Səyavuş bəy bütün günahlarını etiraf etmişdi. O verilişdən 1 il sonra da dünyasını dəyişdi. Ən böyük səhvin özündə olduğunu bilirdi çünki. Çətin adam idi Səyavuş bəy Oğlanlar təhsil aldı, özlərinə iş qurdu. Hər ikisi rusdilli, ali təhsilli, savadlı idilər Çingiz elə yaxşı insan idi ki - mədəni, mərifətli. Amma yekəlib yekə adam olanda da lənət uşaqlıq travmaları adamın yaxasını buraxmır axı. Uğursuz olursan hər yerdə, işdə də, ailədə də. Onlar sevgisiz, yiyəsiz qalmışdılar bir ömür. Dünyada ən böyük dəhşət yiyəsiz qalmaqdır bəlkə. Səni tək buraxanları cəzasız buraxmırsan axı. Bu yolda özünü də yandırırlar, valideynlərin adını da. Cəza ikibaşlı olur. Yiyəsizlikdən qoruyun əvvəl özünüzü, sonra övladlarınızı..."

**Allah rəhmət eləsin, hər üçünə - teatr və kinomuza izi itməyəcək rollar bəxş edən, dodağımıza gülüş qonduran ata, ana və həyatını büdrəyə-büdrəyə yaşamış övlada.**

**Məlahət Rzayeva**

# Şuşanın taleyində üç 8



**Şəhla Tahirqızı,**
**Filologiya üzrə fəlsəfə doktoru,**
**dosent, AMEA Mərkəzi Elmi Kitabxanasının**
**icraçı-direktoru**

**Pifaqor dünyanın ədədlər üzərində qurulduğunu deyir. Ədədlər rəqəm və işarələrin ifadə etdiyi kəmiyyət göstəricisi deyil, onların başqa bir qüvvəsi də vardır. Ədədlərin öz dili var və biz dili olan rəqəmlərin 8-cisindən danışacağıq.**

Karnelius Aqrippanın "Okkult fəlsəfəsi"nə görə, 8 maddi uğur rəmzidir. İki kvadratla ifadə olunduğu üçün kamil inam rəmzi sayılır. İki yerə bölünəndə bərabər hissələrə ayrılır (4-4). Yenə bölsən, bölünəndə bərabər hissələrə ayrılır (2-2-2-2 ), bu isə dördqat tarazlıq deməkdir.

8 rəqəmi kamillik simvoludur və ona "Rəbbin hədiyyəsi" də deyirlər. Onun dünyanın üfüqi simvolunu təmsil etməsinə inanırlar. Çünki üfüqi olaraq yerləşdikdə, sonsuzluq simvoluna çevrilir.

Bəzi xristian təlimlərində isə 8 yenidən doğuşun və ölümün prototipi, dünyanın başlanğıcı və sonudur...

Qədim Babildə 8 rəqəmi Günəşin təcəssümüdür. Yeni Günəşin 8 şüası dünyanın 8 guşəsinə işıq və istilik yayır.

Milli məfkurəmizdə də 8 böyük dəyər daşıyır. Bayrağımızdakı və gerbimizdəki ulduz səkkizguşəlidir.

8 həm də Azərbaycan xalqının qalibiyyət, zəfər rəmzidir.

8-in Şuşanın taleyində xüsusi yeri var: Şuşanın 8-lə başlayan (8 may 1992) işğalı onu 8-lə də Qalibiyyətə, Zəfərə qovuşdurdu (8 noyabr 2020).

Şuşanın taleyində işğal və qələbənin tarixlərindən başqa, bir də 8 avqust 1930-cu il tarixi var: Şuşa rayonunun yaradıldığı tarix.

Bu tarixlə Şuşanın ictimai həyatına çoxsaylı yeniliklər gəldi: Şuşada ilk Musiqi texnikumu, "Oxu tar", "Tər çiçəklər", "Muğam" ansamblları, Gövhərağa məscidində Şuşa Tarix Muzeyi, "Gəncə qapısı"nın mühafizə zonasında respublikamızda birinci "Açıq muzey", Dərman bitkiləri muzeyi, Şuşa şəhər Rəsm Qalereyası, Xurşudbanu Natavanın evində Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin Xurşudbanu Natavan adına Qarabağ filialı, Mehmandarovların malikanəsində Azərbaycan Milli Xalça Muzeyinin Şuşa filialı yaradıldı. Müxtəlif adlarla nəşr olunan yerli mətbu orqana "Şuşa" adı verildi, Dövlət Kolxoz və Sovxoz Teatrı, həmin teatrın əsasında Şuşa Dövlət Musiqili Dram Teatrı, Üzeyir Hacıbəylinin və Bülbülün ev muzeyləri, Ümummilli Lider Heydər Əliyevin iştirakı ilə Molla Pənah Vaqifin muzey məqbərəsi, Xurşidbanu Natəvanın büstü və Poeziya Evi açıldı. Molla Pənah Vaqifin büstü qoyuldu, Şuşa şəhəri Tarixi Memarlıq Qoruğu elan olundu,"Vaqif poeziya günləri", Cıdır düzündə "Xarı bülbül" Ümumittifaq Muğam festivalı keçirildi, teleötürücü stansiya fəaliyyətə başladı, Bülbülcan adına uşaq musiqi məktəbi, Üzeyir Hacıbəyli adına Azərbaycan Dövlət Konservatoriyasının Şuşa filialı, şair, ədəbiyyatşünas, musiqişünas Mir Möhsün Nəvvabın ev muzeyi, Respublika Bəstəkarlar İttifaqının Şuşa filialı fəaliyyətə başladı və sadalaya bilmədiyimiz daha bir çox hadisələr tarixə həkk olundu...

Və həm də mənfur erməni vandallarının çoxsaylı gizli-aşkar təxribatları ilə ötüb keçmişdi bu tarixdən başlanan və digər 8-ə gedən yol. Nəhayət, nəinki Şuşanın, həm də Azərbaycanın şərəfli tarixinə ləkə olan 8 may 1992-ci il....

Bu 8-lə Şuşanın taleyində baş verənlər ağrılı-acılı 28 il uzaq saldı Şuşadan bizləri. Nələr baş verdi?..

Azərbaycanın mədəniyyət beşiyi Şuşa şəhəri işğal olundu, nəticədə 23 ümumtəhsil məktəbi, 6 məktəbəqədər uşaq müəssisəsi, 7 məktəbəqədər uşaq tərbiyə müəssisəsi, peşə-ixtisas məktəbi, Mədəni-maarif, Kənd təsərrüfatı, Musiqi, Tibb texnikumları, həmçinin ADPU-nun filialı yerlə-yeksan edildi.

8 mədəniyyət evi, 22 klub, 2 kinoteatr, 8 muzey, 31 kitabxana, turizm bazaları, Şərq musiqi alətləri fabriki də erməni vandalizminə məruz qalaraq dağıdıldı. Şəhərin tarixi muzeyinin 5000-dək, Dövlət Qarabağ Tarixi muzeyinin 1000-dək, Üzeyir Hacıbəylinin ev muzeyinin 300-dək, Bülbübün ev muzeyinin 400-dək, Mir Möhsün Nəvvabın xatirə muzeyinin 100-dək əşyası qarət olundu.

Bu işğal nəticəsində şəhərdə 195 nəfər Azərbaycan vətəndaşı xüsusi amansızlıqla qətlə yetirildi, 165 nəfər yaralandı, onlardan 150 nəfəri əlil oldu, 25 minə yaxın əhali isə doğma yuvasından qaçqın düşdü. Şuşanın işğalına qədər onun müdafiə olunmasında canından keçən çoxsaylı igidlərin sırasında şuşalı Milli qəhrəmanlar da var: Hüseynov Sadıq Dayandur oğlu, Qənbərov Ramiz Bulud oğlu, Məmmədov Nizami Murad oğlu, Teymurov Rizvan Rəhman oğlu.

Bu işğalın ən dəhşətli məqamlarından biri də vandal ermənilərin Xan qızı Natəvanın, Üzeyir bəyin, Bülbülün heykəllərini güllələməsi və güllələnmiş heykəlləri Ermənistana aparması idi.

.... Və nəhayət, Şuşanın taleyində ən uğurlu, şərəfli daha bir 8... 8 noyabr 2020 - ci il.

Bu tarixdə Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Silahlı Qüvvələri 44 günlük İkinci Qarabağ müharibəsi zamanı Şuşa şəhərini Ermənistan Silahlı Qüvvələrindən azad etdi: Bu, Azərbaycan xalqının şərəfinin, ləyaqətinin qürur və mübarizlik tarixidir. Bu tarixlə Şuşanın taleyində yeni dönüş başladı...

8 noyabrda Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyev Şuşa şəhərinin işğaldan azad olunması münasibətilə xalqa müraciət ünvanladı.

Prezident Füzuli-Şuşa yolunun, burada tikiləcək yeni məscidin, 1 saylı ümumtəhsil məktəbinin, Şuşa Radio-Televiziya Yayım Stansiyasının, Daşaltı məscidinin, eləcə də çoxsaylı tikililərin təməlini qoydu və Şuşa şəhərində üçrəngli bayrağımızı ucaltdı. Dahi şəxsiyyətlərin - Xan qızı Natəvanın, Üzeyir bəyin, Bülbülün mənfur ermənilər tərəfindən 1992-ci ildə güllələnmiş büstləri yenidən doğma Şuşaya qaytarıldı, "Xan qızı" bulağı bərpa edildi. "Xarıbülbül" musiqi festivalı, "Vaqif Poeziya Günləri" keçirildi, 15 iyun 2021-ci ildə Azərbaycan və Türkiyə prezidentləri arasında təkbətək görüşdən sonra "Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsi" imzalandı, Dünya Azərbaycanlılarının V Qurultayı - Zəfər Qurultayı keçirildi və s.

Hələ neçə-neçə uğurlu layihələr gerçəkləşdiriləcək doğma Şuşada.

12 may 2021-ci ildə Şuşada inşa ediləcək yeni məscidin təməlini qoyarkən Prezident İlham Əliyev demişdi: "Təklif etdim ki, məscidin forması 8 rəqəmini əks etdirsin", yəni kamil inam rəmzini, Şuşanın uğurlu gələcəyinə əminliyin rəmzini...

**Təbrik edirik**






Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100 illiyi münasibətilə İncəsənət Olimpiadası keçirilib. Rəşid Behbudov adına Mahnı Teatrında keçirilən Olimpiadada Cabbar Qaryağdıoğlu adına 9 saylı Uşaq Musiqi Məktəbinin şagirdi **Mədinə Mirzəzadə fleytada solo ifaya görə qalib olub.** Bu qələbəyə görə Mədinəni, həmçinin elmi rəhbər Tamilla Qalimovanı və konsertmeyster Lidiya Samsonovanı təbrik edirik.

## "İnsan olaq"

Günel Naziləyə sərt sözlər dedi



**Müğənni Günel Ələkbərova və şairə Nazilə Səfərli arasında qalmaqal yaşanıb.**

"Şərq" xəbər verir ki, buna səbəb Nazilənin məşqdə ağır xəsarət alıb dünyasını dəyişən 7 yaşlı Fəridin anası ilə bağlı fikirləri olub:

"Sadəcə müşahidələrimi bölüşürəm. Məni çox da ciddiyə almayın. Bu şəxsi fikrimdir. İstintaqda səhlənkarlığa və saxtakarlığa yol verilməsə, saçı "ukladkalı", əyin-başı yetərincə səliqəli, balasına yas saxlamaq əvəzinə hər zəngə cavab verən, müsahibə verən ananı tutacaqlar. Yenə deyirəm, məni çox ciddiyə almayın. Sadəcə ana olanlar yazsın, iraq evlərdən, belə hadisəni kim yaşasa, necə olardı? Şəxsən mənim balam uşaqlıqda bərk xəstələnmişdi, başı ləçəkli o qədər özümü döymüşdüm, acizlikdən bir gecədə saçım ağardı". Günel isə Nazilənin Fəridin anası haqda dediklərini düzgün hesab etməyib: "7 yaşlı uşağı ölən anaya qarşı bu nə ittihamdır? Ayıbdır. İnsan olaq. Çalışaq ki, hər kəsin dərdinə sayğıyla yanaşaq, ya da sadəcə susaq".

**Elanlar**

"ŞAHİN-005" MMC-yə (VÖEN 1301637451) məxsus möhür itdiyi üçün etibarsız sayılır.

Bakı şəhəri Nizami rayonu, Rüstəm Rüstəmov küçəsi, 72A ünvanında "Park City" MMC tərəfindən inşa edilən çoxmərtəbəli yaşayış binası, Məmmədova Mətanət Qadir qızına məxsus C bloku, 15-ci mərtəbə, 1 otaqlı, ümumi sahəsi 70,69 m" olan 223 saylı mənzilin müqaviləsi itdiyi üçün etibarsız sayılır.

ENTEGRA Səyyar ev yük, Vaqon tipli nəqliyyat vasitəsinin 99 AA 112 dövlət nömrə nişanlı AS № 693695 texniki pasportu itdiyi üçün etibarsız sayılır.



## Azərbaycanın 50 milyard dollara yaxın valyuta ehtiyatı var

"Biz həmin valyuta ehtiyatını xərcləməyə başlasaq, dollar ucuzlaşa və manat kəskin bahalaşa bilər"

**"Dolların kursunun aşağı düşməsi ehtimalı azdır". Bunu "Şərq"ə açıqlamasında bank məsələləri üzrə ekspert, iqtisadçı Əkrəm Həsənov Azərbaycanda və dünyada yaxın zamanlarda dolların kursunun aşağı düşməsi ilə bağlı iddialardan danışarkən deyib.**

Ekspert bildirib ki, hazırda dünyada iqtisadi, siyasi və hərbi gərginlik var: "Belə hallarda isə əksinə, dollara tələbat artır. Çünki çox insan aktivlərini və pullarını dollarla saxlamağa üstünlük verir. Bunun səbəbi isə dolların dünyanın ən güclü dövlətinin pul vahidi olmasıdır. Azərbaycanda isə bu ehtimal daha da aşağıdır. Çünki ölkədə milli valyutanın məzənnəsi inzibati yolla təyin olunur və dollara bağlanıb. Bizim valyuta ehtiyatlarımız əsasən dollarladır. Çünki əsas qazanc mənbəyimiz neftdir, neft isə dollarla satılır. Düzdür, dollar ehtiyatımız hazırda çoxdur. Yəni Azərbaycanın 50 milyard dollara yaxın valyuta ehtiyatı var. Biz həmin valyuta ehtiyatını xərcləməyə başlasaq, dollar ucuzlaşa və manat kəskin bahalaşa bilər. Lakin hökumət bunu heç vaxt etməz. Çünki bu ehtiyatlar gələcək üçün saxlanılır. Yəni ölkəmizdəki neft əvvəl-axır bitəcək və gəlir azalacaq. Bu fonda da valyuta ehtiyatları önəmlidir. Ümumiyyətlə, yaxın zamanlarda dünyada dollarla bağlı dəyişiklik olsa da, Azərbaycanda heç nə dəyişməyəcək".

Qeyd edək ki, yaxın zamanlarda Azərbaycanda və dünyada dolların kursunun aşağı düşəcəyi barəsində iddialar yayılıb.

**Nihat Müzəffər**

## "Ordan mənə bəla gələcəkdi"

Damla canlı efirdə etiraf etdi



**ATV-nin "7 Canlı" proqramına qonaq olan müğənni Damla, maraqlı açıqlamaları ilə diqqət çəkib.**

"Heç bir batil inancım yoxdur, yalnız Allahın varlığına inanıram və hər birimizin də ruzisi öncədən onun tərəfindən yazılıb" sözlərini qeyd edən müğənni, ən çətin anlarında belə Tanrı tərəfdən ona olunan köməyi hiss etdiyini də qeyd edib.

## "Qadın öldürən kişi az idi, biri də Türkiyədən gəldi"

Lalə Mehralı: "Məhkəmə öz həyat yoldaşını qətlə yetirən insanla bağlı ədalətli qərar verməlidir"

**"Səbəbi nə olursa olsun, insanın başqasını qətlə yetirməsi, əlini qana bulaması, özü də birinci dərəcəli yaxınını öldürməsinə heç bir halda haqq qazandırıla bilməz".**



*Bunu "Şərq"ə sosioloq Lalə Mehralı tanınmış plastik cərrah Türkan Gündüzün qətlə yetirilməsindən danışarkən deyib. O vurğulayıb ki, həmin şəxs ən ağır formada cəzalandırılmalıdır:* "Muhammet Gündüzün Azərbaycan vətəndaşı olmaması da nəzərə alınmalıdır. İçimizdə (ölkəmizdə) həyat yoldaşının qanına susayıb, ölümünə səbəb olanlar az idi, biri də Türkiyədən gəldi.

Vaxtilə, başqa ölkələrin ailədaxili cinayət xəbərləri rastımıza çıxanda heyrət edirdik, dəhşətə gəlirdik. İndi eyni hadisələri biz də yaşayırıq. Çünki adiləşib.

Məhkəmə öz həyat yoldaşını qətlə yetirən insanla bağlı ədalətli qərar verməlidir. Heç bir yüngülləşdirmədən, bəraətdən söz getməməlidir. Türkan Gündüz min bir əziyyətə qatlaşaraq, təhsil alıb, peşə fəaliyyəti ilə məşğul olub. Özünü püxtələşdirib, peşəkarlıqla işini icra edirdi.

Cəmiyyət onun haqqında çox yüksək fikirdə idi. Belə bir həkimi itirmək həm cəmiyyət, həm də dövlət adına ağırdır".

Qeyd edək ki, mayın 6-sı Abşeron rayonu, Novxanı kəndi, İlqar Mirzəyev küçəsində yerləşən bağ evində tanınmış plastik cərrah Türkan Gündüz həyat yoldaşı Muhammet Gündüz tərəfindən qətlə yetirilib.

**Sucayət**

## Bildiriş

*Hörmətli Səhmdar!*

"Sumqayıt Aşqarlar" ASC-nin Rəhbərliyi Sizə bildirir ki, 30 iyun 2023-cü il tarixində, saat 11:00-da Sumqayıt şəhəri, H.Z.Tağıyev qəsəbəsi ünvanında yerləşən "Sumqayıt Aşqarlar" ASC-nin inzibati binasında Cəmiyyətin Səhmdarlarının növbəti ümumi yığıncağı keçiriləcəkdir.

Səhmdarların növbəti ümumi yığıncağının gündəliyinə aşağıdakı məsələlər daxildir:

1. Cəmiyyətin 2022-ci il üçün maliyyə-təsərrüfat fəaliyyəti haqqında hesabat;
2. Cari məsələlər.

Yığıncaq iştirakçılarının qeydiyyatı saat 10:00-da başlanır. Yığıncaq 11:00-da başlanır. Qeydiyyat üçün pasport və ya şəxsiyyətinizi təsdiq edən digər sənəd təqdim olunmalıdır. Səhmdarların növbəti ümumi yığıncağında şəxsən özünüz və ya notarius tərəfindən təsdiq edilmiş etibarnamə əsasında nümayəndəniz iştirak edə bilər. Növbəti ümumi yığıncağın gündəliyində duran məsələlər ilə əlaqədar Cəmiyyətin hüquqşünası N.İ.Behbudova müraciət edə bilərsiniz. Əlaqə telefonu: (051) 873-40-13

Göstəricilər

1. 200. Malların təqdim edilməsindən (işlərin görülməsindən, xidmətlərin göstərilməsindən) gəlir
2. 200.1. Malların təqdim edilməsindən gəlir
3. 200.1.2. Topdan satışdan gəlir
4. 200.2. İşlərin görülməsindən və xidmətlərin göstərilməsindən gəlir
5. 203. Daşınan və daşınmaz əmlakın icarəyə verilməsindən gəlir
6. 218. Ümumi gəlirlər, gəlir
7. 220. Çıxılmalardan sonra ümumi gəlir
8. 221. Malların təqdim edilməsi, iş görülməsi və xidmət göstərilməsi üzrə xərclər
9. 221.1. Əmək haqqı və ona bərabər tutulan ödəmələr
10. 221.1.2. - yerli işçilər üzrə
11. 221.2. Sosial sığorta haqları
12. 221.3. Xammal və materiallar
13. 221.10. Su və kanalizasiya xərcləri
14. 221.11. Rabitə xərcləri
15. 221.13. Bank xidməti üzrə xərclər
16. 221.15. Bilavasitə malların təqdim edilməsi (işlərin görülməsi, xidmətlərin göstərilməsi) ilə bağlı sair xərclər
17. 227. Amortizasiya ayırmaları, əsas vəsaitlərin təqdim edilməsi və ləğvi üzrə gəlirdən çıxılan xərclər
18. 227.1. Binalar, tikililər və qurğular üzrə hesablanmış amortizasiya
19. 227.2. Maşınlar və avadanlıq üzrə hesablanmış amortizasiya
20. 227. Nəqliyyat vasitələri üzrə hesablanmış amortizasiya
21. 227.7. Digər əsas vəsaitlər üzrə hesablanmış amortizasiya
22. 230. Sığorta üzrə xərclər
23. 230.2. Ödənilmiş sığorta haqları
24. 233. Gəlirdən çıxılan vergilər və yığımlar
25. 233.1. Torpaq vergisi
26. 233.2. Əmlak vergisi
27. 234. Cəmi xərclər
28. 236. Ümumi gəlirdən çıxılan xərclər
29. 239. Zərər (sət. 236-sət.220)
30. 242. Mənfəət vergisinin dərəcəsi

**Təsisçi və baş redaktor: Akif Aşırlı**
**Baş redaktorun ı müavini: Yusif Nəzərli**
**Redaktor: Ayyət Əhməd**

**Reportyorlar qrupu:**

**Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Aygün Tahir, Nihat Müzəffər, Sücayət Mehti**

**Texniki heyət:**
**Rüfət Dadaşov, İmamcan Əliyev, İlahə İbrahimova, Nailə Cabbarlı, Fazilə Məmmədova**

**Qəzet "Şərq"in kompyuter mərkəzində yığılır, səhifələnir və "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap olunur**

**Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb.**
**Lisenziya: 535**
**www.sherg.az**
**e-mail: sherq-1996@mail.ru**

**Ünvan: Mətbuat prospekti, "Azərbaycan" nəşriyyatı.**
**Telefon: 447-32-41**
**538-44-50, internet 538-44-15,**
**İndeks: AZ1073**

**Hesab nömrəsi:**
**"Muğanbank" ASC baş ofis**
**Kod: 506162**
**VÖEN: 1400122681**
**M/H: AZ41NABZ01350100000000018944**
**S.W.İ.F.T.: MUGAAZ22**
**AZM hesab nömrəsi: AZ76MU-GA400603803000225AZM00**
**VÖEN 1300414651 İndeks: 0330**

**Tirajı: 1550 Sifariş: 1166**




## Amerika universitetinin türk rektoru

Ayşegül Timur ilklərə imza atdı

**İstanbul Universitetində Biznesin idarə edilməsi üzrə təhsil aldıqdan sonra ABŞ-yə köçən professor Ayşegül Timur çalışdığı universitetdə ilklərə imza atıb.** Florida Körfəz Sahil Universitetinin rektor seçilən ilk türk rektor Timur universitetin ilk qadın rektoru ünvanına da nail olub.

"Şərq" türk mediasına istinadən xəbər verir ki, səsvermədən sonra çıxış edən professor "Bu böyük quruma rəhbərlik etməkdən nə qədər qürur duyduğumu söyləməkdə çətinlik çəkirəm. FGCU-nun növbəti müddətli prezidenti kimi görünmək mənim üçün həqiqətən bir nailiyyətdir", - deyə bildirib. Qəyyumlar Şurasının sədri Peter Sulik, "Doktor Ayşegül Timur ağıllı, çalışqan, qətiyyətlidir və əlbəttə ki, çox cəlbedici liderlik xüsusiyyətlərinə malikdir. Onun iş etikası ilə bağlı heç bir sual yoxdur" deyə vurğulayıb. Ayşegül Timur iyunda Universitetin İdarə Heyətindən razılıq aldıqdan sonra iyulun 1-də vəzifəsinin icrasına başlayacaq.

**Turan**

## Tom Kruz təyyarədən Kral Çarlzı salamlayıb



**İngiltərənin yeni monarxı Kral Çarlzın şərəfinə Vindzor qəsrində keçirilən konsertdə Tom Kruz əvvəlcədən lentə aldığı videosu ilə görünüb.**

"Şərq" xarici mediaya istinadən xəbər verir ki, Kruz uçduğu təyyarənin kokpitindən kameraya zəng edərək Kral Çarlza mesaj göndərib.

Aksiyon filmlərində kaskadyorlardan istifadə etməyən və cəsarətli səhnələri özü çəkməsi ilə tanınan Kruz, "Pilotdan pilota qədər, Əlahəzrət, siz həmişə mənim ikinci pilotum ola bilərsiniz", - deyib.

**Turan**





# Tarixin ən yaşlı qatili

Baba Anujka "sehirli su"yu kişilərindən narazı qadınlara satırmış, həmin kişilər 8 gün sonra vəfat edirmiş





**Silsilə qətllər törətməklə dünyada məşhurlaşmış Baba Anujka ("baba" kəlməsi qadın, arvad, nənə mənalarında da işlənir) kimi tanınan qatı cinayətkar qadın tarixə həm də ən yaşlı qatil olaraq düşüb. "Şərq" "Milliyet.com.tr"yə istinadən bildirir ki, onu "Banat cadugəri", "Vladimirovac cadısı" da adlandırırlar. Qatil qadın Yuqoslaviyanın Vladimirovac bölgəsində yaşayıb. Lakin doğum yeri Rumıniya olaraq göstərilir.**

Əsl adı Ana di Riçtonya olan Baba Anujka 1838-ci ildə Rumıniyada zəngin bir ailədə anadan olub. 1849-cu ildə Avstraliya İmperatorluğunun tərkibində olan Banat Hərbi Sərhəd bölgəsindəki Vladimorovaca köçüblər. Anujka Pançevoda özəl məktəbə gedib, orada zəngin ailələrin övladlarıyla birlikdə təhsil alıb. Rəvayətlərə görə, Anujka avstriyalı gənc zabitlə eşq macərası yaşayıb. Bu zaman 20 yaşındaymış. Gənc zabit onu tərk etdikdən sonra isə Anujka insanlara, xüsusən də kişilərə nifrət bəsləməyə başlayıb. Və silsilə qətllər də belə başlayıb. Baba Anujkanın XIX əsrin sonları XX əsrin əvvəllərini əhatə edən dönəmdə təxminən 150 nəfəri zəhərləyərək öldürdüyü bildirilir. Gənc qadının qatilə dönməsinin səbəbi sevgi uğursuzluğu göstərilir.

Kimya fənni üzrə təhsil almış Anujka tənhalığa çəkilib, tibb və kimyagərliyi dərindən öyrənməyə başlayıb. 5 xarici dil bilirmiş. Qadın evinin bir hissəsində kimya laboratoriyası təşkil edib. Şəfalı otlardan, bitkilərdən dərman düzəldib, təbib olaraq tanınır. Səhhətində problem yarananlar ona müraciət edib. Hazırladığı dərmanları satmaqla böyük gəlir əldə edib. Bununla yanaşı, qadının orqanizmdə nasazlıq yaradan dərmanlar da hazırladığı, bunları "sehirli su" və ya "eşq şərabı" adı altında insanlara satdığı da deyilir. Anujka "sehirli su"yu kişilərindən narazı qadınlara satırmış, həmin kişilər 8 gün sonra vəfat edirmiş. Anujka ona müraciət edən qadınlardan ərləri haqqında məlumat alıb, hansına nə qədər "su" veriləcəyini hesablayırmış. Sonralar məhkəməyə çağırılan əri ölmüş qadınlar isə deyib ki, Anujkanın onlara zəhərli içki verdiyini bilməyiblər. Onlar elə bilib ki, qadın onlara ərlərinin rəftarı, onlara qarşı münasibəti düzəlsin deyə, cadu oxuduğu sudan verib. Amma Anujkanın satdığı "sehirli su"yun 150 nəfəri öldürdüyü bir gerçəkdir. Anujka dərman "sənayesini" xeyli genişləndirə bilib, hətta satış təmsilçisi də olub. Onun vəzifəsi isə potensial alıcılar cəlb etmək olub. Anujka "sehirli su"ya 2000-10.000 yuqoslav dinarı qiymət qoyub. Anujkanın sonunu gətirən də alıcılarından biri - əri "sehirli su"yla öldürülən Stana Momirov isimli qadındır. Qadının ikinci ərinin qohumu qəfil vəfat etdikdə, Stana Baba Anujkanın "sehirli su"yundan şübhələnib və polisə müraciət edib. Beləliklə də illərlə insanları zəhərləyərək öldürən qadınla bağlı istintaq başladılıb. İstintaqda Baba Anujkanın bir deyil, bir neçə nəfərin ölümündə təqsirli olması sübuta yetirilib, o, 15 il həbs cəzasına məhkum edilib. Lakin yaşlı olması nəzərə alınaraq 8 ildən sonra azad edilib və ömrünün qalanını Vladimirovacdakı evində keçirib, 100 yaşında vəfat edib.

**Məlahət Rzayeva**

## Sirri məlum oldu

**Cennifer Lopez niyə həmişə ərindən bir addım geridə qaldığını açıqlayıb**



**Dünya ulduzu Cennifer Lopez tok-şouda Ben Affleklə münasibətindən danışıb.**

**"Şərq" xarici mediaya istinadən xəbər verir ki, 53 yaşlı Lopez tədbirlərdə adətən Afflekdən niyə bir addım geridə getdiyini izah edib.**

**Lopez ərinin arxasında qalmasının səbəbini Afflekin ondan çox uzun olması və əl-ələ tutmaq istəməsi ilə əlaqələndirib.**

**"Onun boyu 1,93, mən balacayam. Boyum təxminən 1,67 metr" deyən Lopez əl-ələ tutmağı sevdiklərini və buna görə də belə bir yol tapdıqlarını bildirib.**

**"O, daha hündürdür və qolları dik durur. Mən bir addım geridə qalaraq tarazlığı saxlayıram. Buna görə də xoşbəxtəm", - Lopez deyib.**

Turan

## Hande Erçel tanınmaz dərəcədə dəyişdi




**Son dəfə "Sen çal kapımı" serialı ilə izləyici qarşısına çıxmış tanınmış aktrisa Hande Erçel tez-tez paylaşdığı fotoları ilə sosial şəbəkədəki pərəstişkarlarının sayını gündən-günə artırır.**

**Lent.az bildirir ki, son olaraq bir markanın üzü olaraq imicini dəyişdirən Hande Erçel saçlarını saraldıb.**

**30 milyon izləyicisi olan aktrisanı yeni imicdə tanımaq mümkün olmayıb. Pərəstişkarlarının bir qrupu ona sarı saçların yaraşdığını desə də, başqa bir qrup Handenin əsmər halını daha çox sevdiklərini deyiblər.**

## Məşhur cütlük rəsmi şəkildə boşandı



**Demet Özdemirlə Oğuzhan Koç boşanıb.**

**Bakupost.az xəbər verir ki, rəsmi ayrılıq prosesinə Oğuzhan Koç 45 dəqiqə gecikib. Razılaşma əsasında boşanma zamanı tərəflər bir-birindən təzminat və aliment tələb etməyib.**

**Qeyd edək ki, cütlüyün evliliyi 8 ay çəkib.**



# İsti çay ağız bölgəsində xərçəng yaradır

Türkiyəli professor isti çay sevgisi və vərdişinin əslində ziyanlı olmasından danışıb

**Sevdiyimiz və əsla vaz keçmədiyimiz bir sıra vərdişlər ciddi xəstəliklərin mənbəyi ola bilər. Türkiyəli professor Oğuz Köse türklərin isti çay sevgisi və vərdişinin əslində ziyanlı olmasından danışıb.**

"Şərq" "Haber türk"ə istinadən bildirir ki, professor "elmi araşdırmalar Orta Şərq xalqlarının gün ərzində çayı çox və isti halda içməsinin ağız bölgəsində xərçəngə yoluxma təhlükəsini artırdığını göstərir. Məsləhətim budur ki, çaysevərlər çay içmələrinin sayını bir qədər azaltsınlar və ist-isti deyil, bir az mülayim halda içsinlər", deyib. Professor xatırladıb ki, Çin və ABŞ-də aparılan tədqiqatların nəticələrinə görə, isti halda içilən çay və qəhvə orqanizmdəki mukozaları (ağızın selikli qişasını) yandırdığı üçün ağız bölgəsində xərçəngə yoluxma riskini 3 dəfə artırır. İsti çay yenilənən hüceyrələri xərçəng hüceyrələrinə çevirə bilir. "Bizlər çayı isti və gün ərzində çox sayda içməyə vərdiş etmişik. Lakin dediyim kimi, elmi araşdırmalar bunun ziyanlı olduğunu, ağız nahiyəsi, baş-boyun bölgəsində xərçəng təhlükəsini artırır. Səbəb isti məhlulun ağız boşluğundakı, boğazdakıl selikli qişanı yandırmasıdır. Ona görə də çayı isti halda deyil, ılıq halda içmək məsləhətdir. Bundan başqa çay 15 dəqiqə ərzində dəmlənməli, yarım saat ərzində istehlak edilməlidir. Dəmləndikdən sonra uzun müddət saxlanmış çayın orqanizmə heç bir faydası olmaz", söyləyən professor çayın faydalarını da sadalayıb. Çay içkisi güclü antioksidandır. Bir qədər diqqətli olub ılıq halda və dəmləndiyində təzə-təzə içsək, orqanizmə faydası çox olacaq.

**Məlahət**

## Amerikalılar Aya enməyib?

"Roskosmos"un sabiq rəhbəri sirri açdı



**Rusiyanın kosmik agentliyi "Roskosmos"un sabiq rəhbəri Dmitri Roqozin ABŞ astonavtlarının 1969-cu ildə "Apollon 11" heyəti ilə Ay planetinə endiklərindən şübhə etdiyini və bununla bağlı hələ də dəqiq sübutlar olmadığını bildirib.**

"NTV.com.tr" xəbər verir ki, D.Roqozin "Teleqram" kanalına açıqlamasında təxminən 10 il əvvəl, Rusiya hökumətində vəzifə daşıdığı illərdə fərdi qaydada araşdırmaya başladığını deyib. Roqozinin şübhələrinin əsasında nə dayanır? D.Roqozin deyib ki, Aya uçuş həyata keşçirib geri dönən sovet kosmonavtları çox yorğun, qayğılı görünürdülər. ABŞ-nin "Apollon 11" kosmik gəmisinin heyəti isə sanki heç nə olmamış kimi qayğısız idi. D.Roqozinin dediyinə görə, sovet rəhbərliyi hətta o zaman ABŞ-yə bununla bağlı dəlillər də göndərib. D.Roqozin dediklərinin sübutu olaraq sovet kosmonavtı Aleksey Leonovun amerikan kosmonavtı ilə danışığı və Ayda baş verənlər barədə ona dedikləri barədə yazdığı kitabı işarə edib. Sabiq rəhbər deyib ki, 2018-ci ildə vəzifəyə təyin edildikdə araşdırmalarına davam edib. Lakin ona hər hansı sübut təqdim olunmayıb. Hətta bir neçə alim onu "NASA ilə işbirliyini baltalamaqda" ittiham edib. Yüksək vəzifəli bir şəxs də onu telefonda danlayıb. D.Roqozin xatırladıb ki, "Apollon 11" sovet-amerikan kosmonavtlarının Aya birgə uçuşunu gerçəkləşdirən kosmik gəmi idi və məqsəd kosmosun guya ki, birgə öyrənilməsi olub. Bu uçuşdan öncə isə "Luna -2" sovet kosmik gəmisi Ay proqramında cığır açmışdı.

**Məlahət**

## Streslə mübarizə

Ən asan yollarından biri bitki tərkibli çaylardır

**Stres insan orqanizmində yaranan narahatlıq və ya gərginlikdir. Bu hal davamlı olarsa, depresiyaya çevrilə bilər.**

Axşam.az Türkiyə mətbuatına istinadən xəbər verir ki, streslə mübarizə aparmağın ən asan yollarından biri bitki tərkibli çaydan istifadə etməkdir.



**Lazım olanlar:**

50 qr. çobanyastığı çiçəyi
50 qr. melisa
30 qr biyan kökü
20 qr yaşıl çay

Bu bitkiləri qarışdırıb quru şüşə qabda saxlayın. 300 ml qaynar suya 1.5 ç.q əlavə edərək 8 dəqiqə ağzı qapalı olaraq dəmləyin. Hər gecə yatmazdan 2-3 saat əvvəl qəbul edin.